www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22-24 noyabr 2025-ci il Şənbə № 212 (8822) Qiyməti 60 qəpik

**Xəbər**

**Sığınacaqda özünə qəsd edən Nurcanın ölümündəki müəmma**

yazısı səh.11-də

**Gündəm**

**Azərbaycana milyardlar yatırılacaq - gözlənti**



Qarabağ və Şərqi Zəngəzur "güzəştlər vadisi"nə çevrilir

yazısı səh.14-də

**Kreml köhnə sənədlərdən əl çəkmir - Bakı və İrəvana hədə kimi ismarış**

yazısı səh.10-da

**Zəngəzur dəhlizinin qiyməti artır - Mühüm yenilik**

yazısı səh.6-da

**Büdcə zərfinin müzakirələrində deputatlar toqquşdu**

yazısı səh.5-də

**Rusiya Ermənistanı Ukraynanın gününə salmaqla hədələyir**

yazısı səh.3-də

**"Mixaylo"ya dönmüş Mixaylovu Bakıda axtarırlar - Azərbaycana təzyiq**

yazısı səh.4-də

**İran təkbaşına Xəzərin hüquqi statusuna qarşı - Tehranın dərdi**

yazısı səh.6-da

**Ukrayna üçün 28 bəndlik tələ, yoxsa...**

yazısı səh.7-də

**Avtomobil nömrələrində yenilik - Defisin önəmi**

yazısı səh.13-də

**Bakıda faciə: 4 ofisiantı "tok" vurub öldürdü**

yazısı səh.2-də

**Eynəkli uşaqların sayı niyə artır?**

yazısı səh.15-də

# İRƏVANIN YENİ HİYLƏSİ - BAKI VƏ ANKARANIN ARASINA GİRİB...

Ermənistanın baş diplomatı yenə "nala-mıxa" vurdu; Türkiyə ilə əlaqələrin normallaşmasına Azərbaycan mane olur?



yazısı səh.9-da

## Kreditlə yaşayan və oxuyan tələbələr - Fondun faydası varmı?

Təhsil eksperti müsbət və mənfi tərəflərdən danışdı: "Dünya təcrübəsi ilə müqayisədə vəziyyətimiz daha dayanıqlı görünür, amma..."

yazısı səh.12-də



**Ziya Məmmədovla bağlı 100 milyonluq korrupsiya qalmaqalı - Detallar**

yazısı səh.13-də



Üzeyir Şəfiyev

*Sosioloq:*

**"Azərbaycanda faktiki boşanma bumu yaşanır"**

yazısı səh.11-də



Əhməd Davutoğlu

**Türkiyənin sabiq baş nazirindən Azərbaycana hörmətsizlik**

yazısı səh.9-da



## Prezident: “Media mühiti sürətli transformasiyaya məruz qalır”

**“Hazırda media mühiti sürətli transformasiyaya məruz qalır. Təəssüflər olsun ki, qlobal informasiya məkanında dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, "deepfake"lər, süni intellektin imkanlarından sui-istifadə və digər manipulyasiya halları dayanmadan artmaqdadır".**

Musavat.com xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin “Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi” mövzusunda D-8 Media Forumunun iştirakçılarına müraciətində yer alıb.

Dövlət başçısı qeyd edib ki, bu amillər ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərməklə yanaşı, bütövlükdə beynəlxalq sabitliyə zərbə vurur və ölkələr arasında etimadı sarsıdır: “Bu səbəbdən, D-8 Media Forumunun əsas vəzifələrindən biri - doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin qurulması üçün üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın formalaşdırılmasıdır”.

“D-8 Media Forumunun keçirilməsində məqsəd üzv dövlətlərin media subyektləri və media camiəsinin beynəlxalq və regional sahədə əməkdaşlığının inkişafına dəstək göstərməkdir”.

Bunu isə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Bakıda keçirilən “Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi” mövzusundakı D-8 Media Forumu çərçivəsində jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, bu forum həmçinin dezinformasiya və rəqəmsal mühitdə əməkdaşlığın daha da təkmilləşdirilməsi və qarşılıqlı əməkdaşlıq platformalarının yaradılması üçün də faydalıdır.

“Forumda Prezident İlham Əliyevin tövsiyə və təşəbbüsü olan D-8 çərçivəsində Media Mükəmməllik Mərkəzinin yaradılması da müzakirə olunur. Günün sonuna qədər dövlət rəsmiləri və media ekspertlərinin bu xüsusda tövsiyələrinin həmin mərkəzin strateji planına daxil edilməsi istiqamətində işlər aparılacaq”.

İcraçı direktor bildirib ki, gələcəkdə bu kimi forumların keçirilməsi əlaqələrin inkişafı üçün faydalı olacaq. “Müzakirələr onu göstərir ki, bütün dövlətlər bu media forumunun keçirilməsini dəstəkləyir və bunun illik əsasda olması üçün müvafiq bəyanatla çıxış edəcəklər”.



## Vilayət Eyvazov Gürcüstanda - saziş imzalanıb

**Noyabrın 21-də Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Gürcüstana səfər edib.**

DİN Mətbuat Xidmətindən APA-ya bildirilib ki, nazir Vilayət Eyvazovun Tiflisdə Gürcüstanın daxili işlər naziri Geka Geladze ilə görüşü olub.

Görüşdə ölkələrin Daxili İşlər nazirlikləri arasında ikitərəfli əlaqələr, hər iki xalqın maraqlarına uyğun olaraq təhlükəsizlik məsələləri müzakirə edilib.

Səfər çərçivəsində nazirliklər arasında qarşılıqlı informasiya mübadiləsi, əməkdaşlıq və birgə təhlükəsizlik tədbirlərinə dair saziş imzalanıb.

## Ordubadda 17 yaşlı qızı ərə vermək istədilər

**Naxçıvan Muxtar Respublikası (MR) Ordubad Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən erkən nikahın qarşısı alınıb.**

“Unikal” xəbər verir ki, rayonun Tivi kəndində 36 yaşlı şəxslə 17 yaşlı qız arasında planlaşdırılan nişan mərasimi barədə daxil olan məlumat araşdırılıb və müvafiq tədbirlər görülüb.

Erkən nikahın qarşısının alınması məqsədilə tərəflərlə profilaktik söhbətlər aparılıb, qanunvericiliyin tələbləri bir daha izah edilib.

# Evini kirayə verənlərin vergi dərəcəsi endirilir



**Fiziki şəxslərə məxsus yaşayış sahələrinin (mehmanxanalar və mehmanxana tipli obyektlərdə yerləşən yerləşmə vasitələri istisna olmaqla) fiziki şəxslərə kirayəyə verilməsindən əldə olunan gəlirlərdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulacaq.**

Bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb. Beləliklə ki, mövcud qanunvericilikdə fiziki şəxslərin mənzil kirayə verilməsindən əldə olunan gəlirdən 14% verginin ödənilməsi nəzərdə tutulurdusa, yeni dəyişikliklərdə bu hədd 10%-ə endirilir.

Kirayə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə kirayəyə verən özü və ya onun təyin etdiyi vergi agenti bu maddəyə uyğun olaraq 10 faiz dərəcə ilə vergini ödəyəcək və vergi uçotuna alınıb bəyannamə verəcək.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

## Bir qrup erməni fəal Bakıya gəlib

**Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrup 2025-ci ilin 21 noyabr tarixində Azərbaycan paytaxtına səfər edib. “Yeni Müsavat” xəbər verir ki, bu səfər 21-22 oktyabr 2025-ci il tarixlərində Azərbaycan nümayəndə heyətinin Ermənistan paytaxtına səfərinə cavab olaraq həyata keçirilir.**

Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələri 8 avqustda Vaşinqtonda qəbul edilmiş Birgə Bəyanatdan sonra müəyyənləşdirilmiş sülh gündəliyi çərçivəsində dialoqu davam etdirirlər.

Qeyd edək ki, 22 oktyabrda İrəvanda Ermənistan və Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə ikitərəfli dəyirmi masa keçirilib. Dəyirmi masa Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın iştirakı ilə baş tutub. Vətəndaş cəmiyyəti nümayəndələrinin görüş təşəbbüsü sülh gündəliyini 8 avqust 2025-ci il tarixində Vaşinqtonda qəbul edilmiş Birgə Bəyannamə ruhunda təbliğ etmək məqsədi daşıyıb.

## Bu araqlar saxta imiş



**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları ticarət obyektlərində yoxlama aparıblar.**

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən “Unikal”a verilən məlumata görə, yoxlama zamanı bir sıra mağazalarda müşayiətedici sənədləri olmayan, aşkar saxtalaşdırma əlamətləri olan müxtəlif əmtəə nişanlı alkoqollu içkilər aşkarlanıb. İçkilərin kustar üsullarla başlıq hissələrinin butulkalara təkrar bərkidildiyi, qablaşdırılmasının kəskin fərqləndiyi, etiket məlumatlarında istehsalçı və istehsal ünvanı barədə məlumatın olmadığı və saxta VÖEN göstərildiyi məlum olub.

Gəncə şəhərinin Ş.İ.Xətai prospektində fəaliyyət göstərən fiziki şəxs Azər Ələkbər oğlu Abdullayevə məxsus mağazada “Naturel” və “Belenğkaə Vodka”, Atatürk prospekti, ev 83 ünvanında fəaliyyət göstərən fiziki şəxs Elgün Aydın oğlu Ələkbərova məxsus mağazada “Ağsu”, Göygöl şəhərinin A.Kazımov küçəsində fəaliyyət göstərən fiziki şəxs Raqif Qədir oğlu Aslanova məxsus “Əkizlər” marketdə “Organic Brand”, Göygöl rayonunun Quşqara kəndində fəaliyyət göstərən fiziki şəxs Elçin Ələddin oğlu Abbasova məxsus “Çinar” marketdə “Premium Organic”, “Organic Rosinka”, “Mypava”, Aşıqlı kəndində fəaliyyət göstərən fiziki şəxs Cavid Şəmsəddin oğlu Quluyevə məxsus “Gilavar” marketdə “Organic Rosinka”, Yeni Qızılca kəndində fəaliyyət göstərən fiziki şəxs Elnur Şahvələd oğlu Abdullayevə məxsus “BEH” marketdə “N1 Organic” əmtəə nişanlı saxta araqlar müəyyən edilib. Faktla bağlı qanunvericiliyə uyğun olaraq, içkilərin satışının qarşısı alınıb və möhürlənərək saxlanca verilib, nümunələr götürülərək müayinələrə cəlb olunub. Araşdırmalar davam etdirilir.



## Polkovniki maşın vurub öldürdü

**Müdafiə Nazirliyinin Silahlandırma İdarəsinin keçmiş rəisi, polkovnik Yaqub Əhədov yol-nəqliyyat hadisəsi nəticəsində ölüb.**

Teleqraf xəbər verir ki, hadisə Sumqayıt şəhərində qeydə alınıb. İlkin məlumata görə, polkovnik Əhədovu avtomobil vurub.



## Lənkəranda qədim meşə qalıqları üzə çıxıb

**Lənkəran rayonunun Kənarmeşə kəndi ərazisində Xəzər dənizinin geri çəkilməsi nəticəsində illərdir suyun altında qalmış qədim meşə qalıqları üzə çıxıb.**

APA-nın cənub bürosunun verdiyi xəbərə görə, dənizin içində qayalıq kimi görünən çıxıntıların əslində nəhəng ağac kökləri olduğu məlum olub. Yerli sakinlərin sözlərinə görə, bu ərazidə bir vaxtlar geniş palıd meşələri mövcud olub və Kənarmeşə kəndinin adı da buradan qaynaqlanır.

Üzə çıxan kök qalıqlarının diametri 3-4 metrə qədər çatır. Mütəxəssislər bu ağacların yüz illər boyunca yaşamış iri palıdlara məxsus olduğunu və uzun müddət Xəzərin duzlu suyunda qalmalarına baxmayaraq tam çürümədiklərini bildirirlər.

Suyun çəkilməsi ilə bir neçə ərazidə qırılmış iri ağac gövdələrinə də rast gəlinib. Faktlar göstərir ki, Xəzər dənizi əsrlər boyu sahilə doğru irəlilədiyi torpaq sahəsindən geri çəkildikcə bir zamanlar mövcud olan meşə zolağının izləri yenidən görünür.

## Bakıda 4 ofisiantı “tok” vurub öldürdü

**Paytaxtın Binəqədi rayonu, Biləcəri qəsəbəsində faciəvi hadisə baş verib. Binəqədi şosesində yerləşən “Lake Hotel” restoranının yaxınlığında oranın 4 əməkdaşı cərəyan vurması nəticəsində vəfat edib.**

“Azərişıq” ASC-dən bildirilib ki, hadisə baş verən həmin 35 kV-luq özəl xətt 2007-ci ildə istifadəyə verilib: “Həmin yüksəkgərginlikli xətt özəl şirkətə məxsus olduğu üçün "Azərişıq" ASC-nin balansında deyil". Hazırda hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerindədir.

YENİ MÜSAVAT
N 212 (8822) 22 noyabr 2025

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Cənubi Qafqazla bağlı növbəti sərt açıqlama ilə çıxış edib. O, Qərbin regiondakı "destruktiv siyasətinin" sürətlə genişləndiyini bildirib və xüsusilə Ermənistana yönəlik yeni təsir mexanizmlərinin işə salındığını vurğulayıb. Zaxarovanın sözlərinə görə, Avropa İttifaqı İrəvana təsir imkanlarını artırmaq üçün bütün vasitələrdən istifadə edir - qrantlar, siyasi təzyiq paketləri, informasiya manipulyasiyaları və ideoloji yönləndirmələr gündəmdədir.**

# Rusiya Ermənistanı Ukraynanın gününə salmaqla hədələyir

## Zaxarovanın bəyanatı Cənubi Qafqazın hədəf seçildiyinə işarədir



Rusiya rəsmisi daha da irəli gedərək bəyan edib: "Ermənistana faktiki olaraq açıq şəkildə Moldova və Ukrayna yolunu təkrar etmək təklif olunur".

Zaxarova iddia edir ki, Brüssel bu iki ölkəni "avrointeqrasiyanın ən uğursuz nümunələri" kimi təqdim etsə də, eyni modeli Ermənistana sırımağa çalışır. Onun fikrincə, məqsəd erməni cəmiyyətinə neoliberal dəyərləri zorla mənimsətmək, paralel şəkildə isə rusofob əhval-ruhiyyəni gücləndirməkdir.

Bu açıqlamanın, xüsusən də Ermənistana Ukrayna və Moldova xatırlatması Rusiyanın İrəvana "Səni də Ukraynanın gününə salaram" hədəsi hesab oluna bilərmi? Həm də bu fikirlər Rusiyanın Cənubi Qafqazla, əsasən də Ermənistanla bağlı sərt addımlara hazırlaşması anlamına gəlirmi?

Politoloq Oqtay Qasımov "Yeni Müsavat"a bildirdi ki, Mariya Zaxarovanın son dönəmlər təkrar-təkrar Azərbaycan-Ermənistan münasibətləri, Cənubi Qafqazla bağlı açıqlamaları diqqəçkicidir: "Bu ilk növbədə onun siqnalı sayıla bilər ki, Rusiya Cənubi Qafqazdan çəkilməklə bağlı hansısa bir addım atmağa hazırlaşmır, əksinə möhkəmlənmək qərarındadır, öz maraqlarını sonuna qədər qorumaqda israrlıdır. Bundan başqa son dövrlər Ermənistan hakimiyyətinə qarşı açıq təhdid dilinin seçilməsi onu göstərir ki, bu ölkədə təsir imkanları azalan Rusiya artıq şantaj yolunu seçmək haqqında qərar qəbul edib. Nəzərə alsaq ki, Rusiya hakimiyyəti Ermənistanda öz tərəfdarlarını iqtidara gətirmək və Paşinyan hakimiyyətini dəyişmək üçün müxtəlif ssenariləri işə salıb, Zaxarovanın bəyanatının da bu qəbildən olduğunu düşünmək olar. Rusiya hesab edir ki, Ermənistan onun forpostudur və bu cür də qalmalıdır, məhz Ermənistan üzərindən Moskva özünün Güney Qafqaz siyasətini davam etdirməlidir. Paşinyan isə bu siyasətə qarşı çıxır, qonşu ölkələrlə, xüsusən də Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq xəttini götürüb. Mariya Zaxarovanın bəyanatı belə bir vəziyyətdə verilir və bu bir təhdiddir. Ermənistana açıq şəkildə mesaj verilir ki, Ukraynanın vəziyyətinə düşə bilərsiniz və bunun üçün Rusiya imkanlarından istifadə etməyə çalışacaq. Gümrüdəki Rusiya hərbi bazası da bu planda nəzərdə tutulan əsas faktorlardan biridir. Amma düşünürəm ki, həm Paşinyan bu prosesləri dəqiq hesablayır və təhdidləri yaxşı bilir və bunun qarşısının alınması üçün Qərblə iş aparır, ölkə daxilində təsirli addımlar atır. Rusiya Ukraynadan sonra əli-qolu açılandan Cənubi Qafqazla, Ermənistanla bağlı daha rahat addımlar atmağı düşünür. Amma buna nail olacaqmı, bunun özü də problematik məsələdir".

Politoloq Məhəmməd Əsədullazadə isə bildirdi ki, ABŞ-ın Ukraynaya təqdim etdiyi "Sülh planı"nın Moskvanı ruhlandıracağı və digər postsovet respublikalarının üzərinə yerimək üçün həvəsləndirəcəyi gözlənilən idi: "Gəlin Mariya Zaxarovanın bu hədə mahiyyəti daşıyan bəyanatı hansı gün verməsinə diqqət edək. Məhz ABŞ-ın "Sülh planı" açıqlandıqdan dərhal sonra bu bəyanat verildi. Belə bir bəyanatın birbaşa Kreml tərəfindən hazırlandığı və Zaxarovanın dili ilə səsləndirildiyi şübhəsizdir. Ermənistana dolayısı ilə xəbərdarlıq edilir ki, Qərbə doğru yolundan imtina etməsən, həmişəki kimi Rusiyanın əmrində olmasan səni Ukraynanın vəziyyətinə sala bilərik. 2014-cü ildən etibarən bu tipli xəbərdarlıqları Rusiya Ukraynaya da edirdi. Nəticə məlumdur və ortadadır. Rusiya Ukrayna müharibəsindən qalib ayrılarsa digər ətraf ölkələri təhlükənin gözlədiyi barədə proqnozlar təəssüf ki, doğrula bilər. Mariya Zaxarovanın bəyanatı bu təhlükənin olduğunu göstərir. Belə görünür ki, bir nömrəli hədəfdə Ermənistandır".

Politoloqun sözlərinə görə, nəzərə alsaq ki, Ermənistanda seçkilər yaxınlaşır və Moskvanın Ermənistanda hakimiyyəti dəyişmək üçün ən ağlagəlməz addımlara gedəcəyi ehtimalı güclənir: "Əgər ABŞ-ın "sülh planı" Ukraynaya qəbul etdirilərsə, Rusiyanın təkcə Ermənistana deyil, bütün Cənubi Qafqaza yönəlik təzyiqlərinin artacağını da Zaxarovanın fikirlərindən oxumaq olur. Rusiya son zamanlar Cənubi Qafqazda mövqeyinin zəifləməsi ilə barışa bilmir. Ona görə də mövqelərini bərpa edib daha da gücləndirmək niyyətindədir. Nazirlik sözçüsünün sözlərindən bu bir daha sezilir. Rusiya üçün Ukraynadan sonra növbəti hədəf Cənubi Qafqaz ola bilər. Çünki Orta Dəhlizin əsas hissəsi məhz bu regiondan keçir və nəqliyyat-kommunikasiya xətlərinə nəzarət Moskva üçün strateji prioritetdir. Buna görə Rusiya öz mövqelərini zəiflətməyə heç bir halda razı olmayacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Paşinyanın Trampdan təhlükəli xahişi - Bakıda məhkəməsi gedən o caniləri...

**Erməni ekspertlərindən ibarət nümayəndə heyəti iki günlük səfərlə artıq Bakıdadır. Ötən ay Azərbaycandan bir qrup analitik İrəvanda olmuşdu. Yeni bunu hər şeydən öncə cavab addımı, eyni zamanda, böyük barışıq naminə növbəti səylərdən biri kimi qiymətləndirmək lazım gəlir.**

Ağ Evdəki 8 avqust anlaşmasından sonra qarşılıqlı etimadı möhkəmlətmək yönündə ilk olaraq məhz vətəndaş cəmiyyətlərinin fəallaşması təqdirədicidir. Hərçənd qarşıda uzun yol var. Aradakı düşmənçiliyin heç nə olmayıbmış kimi, öz-özünə yox olacağını düşünmək sadəlövhlük olar...

İstənilən halda biz qonşuyuq, Marsa-zada heç kim köçəsi deyil. Odur ki, nə qədər çətin də olsa, cəhdlər davam eləməli, gediş-gəliş, danışıqlar olmalı, müzakirələr aparılmalıdır. Özü də erməni tərəf buna daha çox maraq göstərməlidir. Ona görə ki, iki xalq arasında yaranmış dərin uçurumun, qarşılıqlı nifrətin tək baiskarı o!

Baxaq görək, iqtidarlı-müxalifətli erməni toplumu bu ağır sınaqdan çıxmağa, əsas qonşuları ilə sülh və əmin-amanlıq içində yaşamağa nə dərəcədə hazırdır? Buna iradəsi, müdrikliyi çatacaqmı?

"Sülh-barışıq" deməklə barışıq olmur. Bundan ötrü ən azından Ermənistan konstitusiyası vaxt itirilmədən beynəlxalq hüquqa uyğunlaşdırılmalı, oradan Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları ilə bağlı müddəalar çıxarılmalı, həmçinin gerbdəki Ağrı dağının ("Ararat") simvolu ləğv edilməlidir. Qarşılıqlı etimada ən böyük töhfə də elə bu olacaq.

Qısası, qarşı tərəf bütün dünyaya əyani nümayiş və sübut eləməlidir ki, artıq millət olaraq tam "islah" olub, haqqın yoluna gəlib və bir daha Türk xalqına qarşı xarici güclərin əlində maşa, bölgədə yeni müharibəyə səbəb olmayacaq.

Şübhə yox ki, məsələdə hakimiyyətdən az şey asılı deyil. İnsafən Nikol Paşinyan hələ də "miatsum"dan tam qurtulmamış cəmiyyətinə 29.9 kv km-lik "real Ermənistan"ı "həzm etdirmək" üçün permanent səylər göstərir. Ölkəsinin Rusiyanın "cibindən çıxmasının" vacibliyini izah edir, amma və lakin...

İki gün öncə həmin bu Paşinyan sən demə, İrəvanda səfərdə olan ABŞ dövlət katibinin müavini Elison Hukerlə görüşdə Vaşinqtondan Bakıda məhkəməsi gedən erməni quldurların "geri qaytarılmasını təmin etmək üçün" kömək istəyib. Baş nazir belə bir açıqlamanı hökumət iclasından sonra jurnalistlərə verib.

Sitat: "Görüş zamanı mən bu məsələyə xüsusi toxundum və qeyd etdim ki, Prezident Tramp məsələnin həllinə sadiqliyini ifadə edib. Mən həmçinin məsələ ilə bağlı ikitərəfli səylərimizi qeyd etdim. Dövlət katibinin müavinindən ABŞ-ın bu istiqamətdə gördüyü səylər barədə məlumat verməsini xahiş etdim. Onu da xahiş etdim ki, məsələ əsas prioritet olaraq qalsın".

İndi bunu necə anlayaq? Axı belə bir xahiş Bakı ilə pozitiv sülh gündəliyinə tamamən ziddir. Hamıdan yaxşı elə Paşinyana məlumdur ki, məhkəməsi gedənlər hansı "yuvanın quşları"dır. Onların içində milyarder, Kremlin uğursuz emissarı Ruben Vardanyan da var ki, faktiki Nikol Paşinyana və onun iqtidarına düşmən kəsilib. Ötə yandan, az öncə baş nazir Qarabağdan könüllü getmiş ermənilərin geri dönüşünü gündəmə gətirməyin sülh prosesinə ziyan verəcəyini söyləmişdi. Nə oldu bəs?

Bu "nala-mıxa" vurmanın adı nə? Məhkəməsi bitməkdə olan ermənilərin "məsələsinə" bu şəkildə fokuslanmaq sülh prosesinə ziyan deyil? Axı söhbət özəlliklə qarşılıqlı etimad tədbirlərini möhkəmlətməkdən gedir. Tarixi təcrübə isə göstərir ki, canilərin sərbəst buraxılması yox, məhz cəzalandırılması sülhə töhfə ola bilər. Bakı niyə bunu əksini etməlidir ki.

Yeri gəlmişkən, erməni müttəhimlərin bir çoxuna prokuror ömürlük, yerdə qalanlarına isə qismən yüngül (20-15-10 il) cəzalar tələb edib. Yəqin ki, elə də olacaq. Məgər onlar Azərbaycanda yaşayan minlərlə dinc ermənilərdəndirmi ki, Tramp xahiş eləsin, Azərbaycan Prezidenti də buraxsın? Tramp müharibənin təzədən alovlanmasınımı istəyir?

Düşünmürük. Cinayətkarların cəzasız buraxılması məhz yeni müharibəyə aparacaq? Separatçılıq, insanlıq əleyhinə cinayətlər törədənlər layiqli cəzalarını almayınca, cinayətlər də təkrarlana bilər. Bakıdakı prosesin əsas bəşəri hədəfi bu...

❑ **Zahid SƏFƏROĞLU**

# “Mixaylo”ya dönmüş Mixaylovu Bakıda axtarırlar - Azərbaycana təzyiq

## Rusiya və Qərb eyni anda təzyiqlər göstərir; casusun ölkəmizdə olub-olmaması belə məlum deyil

**Rusiya və Qərb kəşfiyyat agentlikləri 2024-cü ilin yayında Böyük Britaniya, Almaniya və Polşada yük və kuryer şirkətlərinin anbarlarında bağlamaların partladılmasında iştirak edən rusiyalı diversant Yaroslav Mixaylovla bağlı gizli şəkildə mübarizə aparır. Adam “Uzaq sahillərdə” filminin personajı, “Mixaylo” ləqəbli əfsanəvi partizanımız Mehdi Hüseynzadəyə dönüb. İndi onu şəhərdə (Bakıda) axtarırlar.**

“Vaşinqton Post” xəbər verir ki, partlayışlardan sonra Mixaylov saxta sənədlərdən istifadə edərək Azərbaycana qaçıb. İndi Qərb və Rusiya xüsusi xidmət orqanları rusiyalının ekstradisiyası üçün Azərbaycana təzyiq göstərməyə çalışır. Məqalədə bildirilir ki, Federal Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti (SVR) və Baş Kəşfiyyat İdarəsinin (QRU) rəhbərləri Bakıya təzyiq göstərməyə çalışıblar ki, Mixaylovu Rusiyaya qaytarsın və Polşanın rus agentinin ekstradisiyası tələbini rədd etsin.

Öz növbəsində Polşa, Böyük Britaniya, Ukrayna və Litva Mixaylovun Rusiyaya qayıtmasının qarşısını almağa çalışır.

“Interpol” Polşanın tələbi ilə Mixaylovun “Rusiya kəşfiyyat xidmətləri”nin göstərişi ilə həyata keçirdiyi “terrorçu” əməliyyatlara görə onun barəsində gizli həbs qərarı verib. Moskva bağlama anbarında baş verən partlayışlar da daxil olmaqla, Avropada təxribat törədilməsi ilə bağlı bütün ittihamları rədd edir.

Azərbaycan indiyədək Mixaylovun ekstradisiyası ilə bağlı bütün müraciətləri rədd edib. Onların fikrincə, rusiyalı 2024-cü ilin böyük hissəsini naməlum şəraitdə keçirib: o saxlanılmayıb, lakin nəzarətdə qalıb və ölkədən çıxışına qadağa qoyulub. Kremlin sözçüsü Dmitri Peskov “WP”-nin suallarını cavablandırmaqdan imtina edib. “Bizim şərh edəcəyimiz heç nə yoxdur. Azərbaycan Xarici İşlər Nazirliyi də şərh verməkdən imtina edib”, - Peskov deyib.

Azərbaycan onu təhvil verməlidirmi? Ümumiyyətlə, belə bir şəxsin ölkəmizdə olması haqda səhih informasiya varmı və Bakının onu ekstradisiya etmək istəməməsi nədən qaynaqlanır?

Siyasi təhlilçi Sona Əliyeva “Yeni Müsavat”da bir sıra səbəbləri açıqladı: “Rusiya casusu Yaroslav Mixaylovun Azərbaycanda olub-olmaması bəlli deyil. Əgər o, Azərbaycandadırsa, Bakı bütün təzyiqlərə rəğmən onu nə Qərbə, nə də Rusiyaya qaytarmırsa, deməli, ortada başqa səbəblər var. Digər tərəfdən, Yaroslav Mixaylov Azərbaycan sərhədlərini qeyri-ənənəvi yollarla da keçə bilər. Belə olan halda rusiyalı casus məhz Azərbaycan qanunlarına görə mühakimə olunmalıdır.

Siyasi şərhçi Azər Hüseynov “Yeni Müsavat”a dedi ki, son günlər Qərb və Rusiya kəşfiyyat xidmətləri arasında baş verən rəqabət nəticəsində gündəmə gələn Yaroslav həm Rusiya, həm də Qərb xüsusi xidmətləri tərəfindən eyni anda tələb olunması və Bakıya edilən siyasi təzyiqlər regionun geosiyasi reallığını əks etdirir. Lakin bütün bu informasiyalara baxmayaraq, həmin şəxsin ölkəmizdə olub-olmaması barədə təsdiqlənmiş rəsmi məlumat mövcud deyil. Dövlət səviyyəsində də bu məsələyə dair hər hansı açıqlama verilməməsi göstərir ki, bu informasiya ya tam təsdiq edilməmiş kəşfiyyat məlumatlarına əsaslanır, ya da böyük güclər arasında gedən psixoloji əməliyyatların bir elementidir.




Azərbaycan dəfələrlə bəyan edib ki, onun ərazisi heç bir halda başqa dövlətlərin təhlükəsizliyinə qarşı fəaliyyət üçün istifadə oluna bilməz. Bu prinsip ölkənin xarici siyasətinin təməl sütunlarından biridir. Qonşu dövlətlərlə gərginlik yaradan, yaxud hər hansı tərəfə qarşı təxribat məqsədi daşıyan addımlara Bakı heç zaman razılıq verməyib. Bu baxımdan, Mixaylovun Azərbaycanda olub-olmaması, nəzarətdə saxlanılıb-saxlanılmaması və ya üçüncü dövlətlərə təhvil verilib-verilməməsi barədə həqiqətlər yalnız müvafiq dövlət qurumlarının ixtiyarında ola bilər. Məlumatların gizli saxlanılması isə ilk növbədə milli təhlükəsizlik maraqlarından doğur".

Siyasi şərhçi onu da qeyd etdi ki, Rusiya və Qərbin eyni anda rəsmi Bakıya təzyiq göstərməyə cəhd etməsi göstərir ki, Azərbaycan nə Rusiya orbitindədir, nə də Qərb təsirinə tabe olan ölkədir: “Əksinə, ölkəmiz balanslaşdırılmış siyasət yürüdərək, hər iki tərəf arasında sabitlik, kommunikasiyalar və enerji təhlükəsizliyi baxımından mühüm körpü rolunu oynayır. Məhz bu siyasətin nəticəsində Azərbaycan həm regional münaqişələrdə aktiv rol oynaya bilir, həm də böyük güclərin rəqabətindən öz təhlükəsizliyini maksimal dərəcədə qoruyur”.

A.Hüseynovun sözlərinə görə, belə bir şəraitdə Azərbaycanın Mixaylov kimi şəxslər ekstradisiya edib-etməməsi yalnız hüquqi məsələ deyil, həm də siyasi qərardır: “Bu tip addımlar ölkənin müttəfiqləri, qonşuları, regional güclər, eləcə də beynəlxalq təhlükəsizlik balansı üçün ciddi nəticələr doğura bilər. Ona görə də belə məsələlərdə Bakı öz milli maraqlarını əsas götürür və yalnız dövlət təhlükəsizliyi üçün optimal olan qərarı qəbul edir”.

Şərhçinin fikrincə, Mixaylov məsələsinin mahiyyəti ondan daha genişdir. Bu, sadəcə bir casusun ekstradisiyası deyil, ölkənin təhlükəsizlik siyasətini necə formalaşdırdığını göstərən nümunədir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Kreml köhnə sənədlərdən əl çəkmir - Azərbaycana və Ermənistana ismarış

## Moskva naftalin iyi verən razılaşmaların dəfn olunduğunu həzm edə bilmir - Bakıdan reaksiya

**Rusiya Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Mariya Zaxarova bildirib ki, Rusiyanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması ilə bağlı mövqeyi açıq və ardıcıldır. Zaxarova brifinqdə deyib ki, “səylərimiz regionda davamlı sülhə və rifaha nail olmağa yönəlib”.**



Onun sözlərinə görə, Bakı, Moskva və İrəvan arasında imzalanan üçtərəfli razılaşmalar öz aktuallığını itirməyib: “Əksinə, onlar Bakı və İrəvan arasında da sülh prosesi üçün "yol xəritəsi"ni formalaşdırmağa davam edir. Öz tərəfimizdən tərəfdaşlarımıza Cənubi Qafqaz ölkələrinin və qonşularının maraqları naminə qarşılıqlı məqbul bir həll yoluna çatmaq üçün lazım olan köməyi göstərməyə hazırıq".

Hansı sənədlər və ya “yol xəritəsi”, əgər Bakı və İrəvan sülh müqaviləsindən tutmuş, sərhədlərin delimitasiyasınadək bütün məsələləri artıq neçə ildir ikitərəfli formatda uğurla davam etdirirsə?

Yada salaq ki, Rusiya Xarici İşlər Nazirliyi 10 noyabr razılaşmasının 5 illiyi ərəfəsində yaydığı bəyanatda da bu məsələyə işarə vurub. Bəyanatda vurğulanıb ki, sənəd hələ də aktuallığını qoruyur və regionda da dinc həyatın bərpasına yönəlmiş tədbirlər kompleksini işə salıb. Nazirliyin açıqlamasına görə, Rusiya sülhməramlı kontingenti bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasına əvəzsiz töhfə verib.

Halbuki bir neçə ay əvvəl erməni baş nazir Paşinyan “9 noyabr 9 noyabrda qaldı” deyərək üçtərəfli sənədin qüvvədən düşdüyünü açıqlayıb. Üstəlik, 8 avqust sənədi var. Yəni Rusiyanın “mən də varam” tərzində son bəyanatı heç nəyi dəyişmir. Sadəcə, bölgədə mövcudluğunu gözə soxmağa hesablanmış bir naftalin iyi verən bəyanatdır. Rusiya son vaxtlar onu da bəyan edir ki, sülh müqaviləsinin imzalanması və nəqliyyat-iqtisadi kommunikasiyaların bərpası üçün hələ çox iş görməlidir. Bunun ardınca da yenə də öz vasitəçiliyini təklif edir. Rusiyanın situasiyanı doğru qiymətləndirə bilmədiyi göz önündədir. Çünki indi Əliyevla Paşinyanı görüşdürmək, bir masa arxasında oturmaları üçün vasitəçiyə ehtiyacları yoxdur.

Birincisi, 9/10 noyabr bəyanatı qəbul ediləndə Qarabağda separatizmin kökü hələ kəsilməmişdi, ərazi bütövlüyümüzü tam təmin etməmişdik. Azərbaycan bəyanatın qəbulunun 3-cü ilində ərazi bütövlüyünü təmin etdi. İkincisi, rus hərbçiləri evlərinə yola salınıblar. Üçüncüsü, Vaşinqtonda qəbul olunan razılaşmaya görə, Zəngəzur dəhlizinin tikintisi və işlədilməsi ilə bağlı konsorsium qurulacaq və sənəddə dəhlizi Rusiya hərbi qüvvələrinin qoruyacağına dair bənd yoxdur. Bütün bunlar ortada varkən, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova hər dəfə çeynənmiş sözləri təkrarlayır.

Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli bildirib ki, Rusiya köhnə şakərindən əl çəkmir və Cənubi Qafqaza nəzarət ambisiyasından imtina etməyib: “Bu sənədləri hər dəfə yada salmaqda məqsəd Moskvanın öz rolunu qabartmaq niyyətindən irəli gəlir. Amma qatar gedib və Rusiya gecikib. Əgər vaxtında bu razılaşmaların icrası üçün Ermənistana təzyiq göstərsəydi, onun patronajlığı bəlkə də olardı. Amma 5 il ərzində Rusiya Ermənistana ”gözün üstə qaşın var" demədi, dəhlizin açılması üçün təzyiq göstərmədi, qanunsuz silahlı birləşmələrin Qarabağı tərk etməsi üçün sülhməramlı qüvvələr əldə olunan anlaşmanı yerinə yetirmədi və nəticəsi də göz qabağındadır - Rusiya proseslərə təsir edə bilmir!"

VHP sədrinin müavini hesab edir ki, bundan sonra Azərbaycanla Ermənistan arasında normallaşma, yekun sülh müqaviləsinin imzalanması prosesinə Rusiyanın “töhfəsi” lazım deyil: “Əvvəla, münasibətlər o deyil ki, Putin liderləri Moskvaya, yaxud Soçiyə çağırıb hər hansı təsir göstərə bilsin. Hazırda münaqişə Rusiyanı yorub və digər regionlara təsir imkanlarını azaldıb. Ona görə də liderlərin Rusiyada görüşü ehtimalı yoxdur. Üstəlik, Rusiya Azərbaycana hücumları davam etdirir. Kiyevdəki səfirliyimizə zərbəni rəsmi Bakı məqsədli hücumlar kimi dəyərləndirib. Belə münasibətlər ruhunda Rusiya hansı köhnəlmiş razılaşmalara qayıtmağa çağırır? Üstəlik, həmin üçtərəfli sənədlər aktuallığını itirib. Çünki Ağ Evdə sülh məti paraflanıb, Zəngəzur dəhlizi də ”Tramp marşrutu" adı ilə açılacaq. Faktiki ruslar koridora nəzarət şansını əldən verib. Ona görə də belə boş bəyanatların praktiki nəticələri gözlənilmir".

Siyasi analitik Ramiyə Məmmədovanın fikrincə, Kreml köhnə sənədlərə istinad etməklə Cənubi Qafqazda dominant olmaq istəyindədir: “Amma tərəflər həmin razılaşmalara geri dönməyə zərurət görmür. Səbəb də bütün məsələlərin demək olar ki, həllini tapmasıdır. Sülh mətnində hər şey var, Azərbaycanla Ermənistan öz kanalları ilə danışıqlar aparır, moderatora ehtiyac qalmayıb. Bu gün Bakıdan İrəvana nümayəndələr gedir, oradan bura gələnlər olacaq, liderlərin müxtəlif forumlarda görüşmək problemi yoxdur, baş nazirlərin müavinləri səviyyəsində sərhədlərin dəqiqləşdirilməsi işi gedir, yəni Rusiyaya nə ehtiyac var? Yaxud Rusiya hansı problemlər qalıb ki, onun həllinə kömək etmək istəyir? Bir dəhliz idi, Paşinyan onun ABŞ şirkətinə verdi. Sadəcə, Rusiya öz səhvlərini görmür. Məhz həmin yanlış siyasət onu bu prosesdən təcrid olunmasına gətirib çıxardı”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 212 (8822) 22 noyabr 2025

# Büdcə zərfinin müzakirələrində deputatlar toqquşdu

## Milli Məclis 2026-cı ilə bağlı vergi güzəştlərini təsdiqlədi - detallar

**Noyabrın 21-də Milli Məclisdə 2026-cı ilin büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi spiker Sahibə Qafarovanın rəhbərliyi ilə davam etdirilib. "Yeni Müsavat"ın məlumatına görə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Vergi Məcəlləsinə və əlavə 16 qanuna dəyişikliklər barədə deputatları məlumatlandırıb.**



O bildirib ki, Vergi Məcəlləsinə dəyişikliklər 2026-cı ilin büdcə zərfinin əsas tərkib hissəsi olaraq büdcənin parametrləri ilə bilavasitə bağlıdır. Komitə sədrinin sözlərinə görə, bu dəyişikliklər biznes və vətəndaşlar üçün nə vergi yükünü artırır, nə qeyri-stabillik yaradır, nə də biznesin planlaşdırılmasını çətinləşdirir: "Əksinə, yeni sahələr üzrə təşviqlərin verilməsi, vergi yığımı bazasının genişləndirilməsini nəzərdə tutur. Layihədə nəzərdə tutulan dəyişikliklər ölkənin iqtisadi inkişafını sürətləndirmək, kölgə iqtisadiyyatı ilə mübarizə tədbirlərini gücləndirilmək, daxili bazarı qorumaq və idxaldan asılılığı azaltmaq, strateji sahələrə investisiyaların təşviqi və inzibatçılığın təkmilləşdirilməsi üzrə istiqamətləri nəzərdə tutur".

A.Əmiraslanov qeyd edib ki, 2026-cı ildə güzəşt dövrü başa çatır və gəlir vergisi 2500 manatadək gəlirlər üzrə 14 faiz, 2500 manatdan artıq gəlirlər üzrə isə 25 faiz tətbiq olunmalıdır: "Ancaq Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər 2019-cu ildən əvvəlki vergi dərəcələrinin olduğu kimi yenidən bərpasını deyil yeni güzəştli rejimin tətbiqini nəzərdə tutur. Belə ki, 2500 manatadək gəliri olan şəxslər üzrə gəlir vergisi 14 faiz əvəzinə 2026-cı ildə 3 faiz, 2027-ci ildə 5 faiz, 2028-ci ildən isə 7 faiz dərəcə ilə tətbiq ediləcək. Nəticədə bu, region ölkələri arasında ən aşağı göstərici olacaq. Bu addım sahibkarlara və işçilərə yeni vergi qaydalarına rahat uyğunlaşmağa kömək edəcək".

Komitə sədri bildirib ki, layihədə işğaldan azad edilmiş ərazilər üzrə müəyyən edilmiş vergitutma rejiminin Naxçıvan Muxtar Respublikasına da şamil edilməsi nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikası rezidentləri 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən və gömrük rüsumlarından azad edilir.

Deputat Razi Nurullayev layihəyə tənqidi yanaşdı: "2026-cı ilin büdcə-vergi paketi bizə islahat kimi təqdim edilir, amma tərəfimizdən edilən dərin təhlil göstərir ki, bu islahat kiçik sahibkarın çiyninə əlavə yük yükləyəcək".

Deputat qeyd edib ki, xüsusilə fərdi sahibkarlar üçün təklif edilən yeni sosial sığorta mexanizmi iqtisadiyyatın ən həssas təbəqəsini - kiçik dövriyyəli biznesi zərbə altına salır: "Bir çox təqdimatları müxtəlif formatlarda dinləmişəm, aydın görünür ki, yeni model kiçik dövriyyəli sahibkar üçün maliyyə yükünü artıracaq, qeyri-formal sektora keçid riskini yüksəldəcək, hətta fəaliyyətin dayanması ehtimalını artırır. Bu düzəlişlər vətəndaşın gündəlik dolanışığını təhlükəyə ata bilər. Muzdlu işçilərə gəlincə, burada da eyni yanlış yanaşmanın davam etdiyini görürük. Əməkhaqqı artmadan vergi yükü artırılır və bu da "cəmi 3 faiz artım" kimi təqdim edilir. Halbuki mövcud 30 faizlik yüklənmə 37 faizə qalxır və bu, rəsmi şəkildə insanların gəlirindən daha çox vergi tutulması deməkdir. Bu addım əmək müqavilələrinin ləğvini və kölgə iqtisadiyyatına axını daha da sürətləndirəcək. Əslində əməkhaqqı artmadan vergi artımı sosial siyasət deyil, sosial təzyiqdir".

R.Nurullayev dedi ki, layihədə bəzi müsbət toxunuşlar var: "Kirayə gəlirləri üzrə verginin 14 faizdən 10 faizə endirilməsi gözəldir, amma icarə bazarının 70 faizi kölgədə olduğu halda təkcə dərəcənin endirilməsi heç nəyi həll etmir. Nağdsız dövriyyə limitinin 200 mindən 400 min manata qaldırılması da müəyyən fayda verəcək, amma ümumi iqtisadi sistem dəyişmirsə, bu, sadəcə kosmetik düzəlişdir".

Deputat Qüdrət Həsənquliyev Vergi Məcəlləsinin müvafiq maddəsinə diqqət çəkib: "Həmin normada qeyd olunur ki, "növbəti ilin dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi zərurəti yarandıqda həmin qanun layihələri və layihələrdə nəzərdə tutulan vergi azadolmalarının və güzəştlərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan, qurum tərəfindən müəyyən edilmiş qaydada aparılan qiymətləndirilməsinin nəticələrinə dair arayış müvafiq icra hakimiyyəti orqanına cari ilin may ayının 1-dək, müvafiq icra hakimiyyəti orqanı tərəfindən isə Azərbaycan Respublikasının Milli Məclisinə cari ilin mayın 15-dən gec olmayaraq təqdim edilir. Hörmətli sədr, bu məsələni mən əvvəllər də qaldırmışdım: əgər doğrudan da Vergi Məcəlləsinin bu tələbinə əməl etmək mümkün deyilsə, bunu ölü norma kimi Vergi Məcəlləsində saxlamağa ehtiyac yoxdur və təklif edirəm ki, ikinci oxunuşda müvafiq icra hakimiyyəti orqanı ilə əlaqə saxlayaq və bu normanı, ümumiyyətlə, Vergi Məcəlləsinin tərkibindən çıxaraq".

Q.Həsənquliyev bildirib ki, ölkədə ərzaq məhsullarının qiyməti xeyli dərəcədə artıb: "Keyfiyyətli yağ, ət yoxsul insanlar üçün ümumiyyətlə əlçatmaz olub. Biz bilirik ki, əhalinin yoxsulluğunun artması həm də siyasi və təhlükəsizlik məsələsidir. Sosial vəziyyət ağırlaşanda ölkədə dini və siyasi ekstremizm üçün əlverişli mühit yaranır və cinayətkarlığın səviyyəsi artır. Bir çox insanlar dolanışığını təmin etmək üçün hətta öz azadlığı ilə belə risk edirlər və cinayətlərə gedirlər. Ona görə mən təklif edirəm ki, biz indi bu ildən vergi güzəştləri ki, ləğv olunmuşdu, onu bərpa edirik və 2500 manat maaş alan şəxslər üçün artıq 3 faiz vergi dərəcəsi müəyyənləşir. Mən hesab edirəm ki, 1000 manata qədər maaş alanlar, ümumiyyətlə, bütün növ vergilərdən azad olunsunlar. Yəni burada qeyd olunsun ki, 2500 manata qədər maaş alanlar üçün 3 faiz vergi dərəcəsi müəyyən olunsun və 2500-dən yuxarı isə indiki qayda davam etsin. Mən bunu normal sayıram, amma yoxsul təbəqəni doğrudan da müdafiə etmək lazımdır".

Deputat Tahir Mirkişili isə fərqli mövqe sərgiləyib. O, Naxçıvan Muxtar Respublikasına tətbiq ediləcək vergi güzəştlərini təqdir edib: "Hazırda Orta Dəhlizin inkişafı, Zəngəzur dəhlizinin açılması fonunda Naxçıvana tətbiq olunan vergi güzəştləri yalnız iqtisadi deyil, ciddi strateji və geoiqtisadi məsələdir. Hətta təklif edərdim ki, bu güzəştlər müddətli yox, müddətsiz olsun. Naxçıvan mühüm coğrafi məkanda yerləşir və Orta Dəhliz kontekstində emal sənayesi, istehsal və xidmət sahələrinin inkişafı Azərbaycan üçün vacibdir. Sadələşdirilmiş verginin hibrid sisteminin tətbiqini də əhəmiyyətli bir innovasiya hesab edirəm. Vergi cəlb edilən dövriyyənin həcminin 200 mindən 400 minə qədər artırılması və bunun nağdsız ödənişlərlə əlaqələndirilməsi müsbət addımdır. Gələcəkdə bu limitin daha da artırılması mümkündür. Ümumilikdə, vergi dövlət büdcəsinin ən təbii və sabit gəlir mənbəyidir. Dövlət büdcəsi gəlirlərinin böyük hissəsinin vergi hesabına formalaşması iqtisadi siyasətdə mühüm nəticə sayılmalıdır".

T.Mirkişili qeyd edib ki, hazırda Azərbaycanda büdcə gəlirlərinin hər 100 manatından 44 manatı verginin hesabına, 18 manatı isə gömrük rüsumları hesabına formalaşır: "Müqayisə üçün qeyd edim ki, Gürcüstan dövlət büdcəsində büdcə gəlirlərinin hər 100 manatın 78 manatı vergi hesabına formalaşır. Türkiyədə isə hər 100 manatın 86 manatı vergi hesabına formalaşır. Bu onu göstərir ki, Azərbaycanda vergi siyasəti yumşaqdır və yük digər ölkələrlə müqayisədə aşağıdır. Hazırda 7.3 milyard manat həcmində vergi və gömrük azadolmaları mövcuddur. Bu rəqəm büdcə gəlirlərinin təxminin 20%-nə bərabərdir. Onlardan 3.5 milyard manatı idxal azadolması, 3.8 milyard manatı sahibkarlığa tətbiq olunan vergi güzəştləri ilə bağlıdır".

Deputat büdcənin sosialyönümlü olduğunu söyləyərək təkliflərini irəli sürüb: "Yeni iş yeri açan və əməkhaqqını artıran sahibkarların ödədiyi əmək haqlarına bir il müddətinə bütün vergilərdən 50% güzəşt tətbiq olunsun. Universiteti yeni bitirib əmək bazarına daxil olan şəxslərə də gəlirlərdə 50% güzəştlərin tətbiq edilməsi faydalı olar".

Müzakirələrdən sonra sənəd təsdiqlənib.

Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi parlamentdə müzakirəyə çıxarılaraq qəbul edilib. Parlamentin işlər müdiri Firudin Hacıyev bildirib ki, Milli Məclisin və onun Aparatının saxlanması üçün xərclər 52,74 milyon manat təşkil edəcək. Bu smetanın ümumi məbləğinin 75-88%-i əməkhaqqı fondu və əməkhaqqı ilə bağlı ayırmaların payına düşür.

Milli Məclisin bu gün keçirilən plenar iclasında Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında qərar layihəsi müzakirəyə çıxarılıb. Layihəyə əsasən, Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası 11 455 897 manat məbləğində olacaq.

Deputatlar sənədi müzakirə edərək təsdiqləyiblər.

Milli Məclisin sədri Sahibə Qafarova iclasın sonunda çıxış edərək hakim Yeni Azərbaycan Partiyasının yaranma tarixindən bəhs edib: "1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin siyasi həyatının müstəsna əhəmiyyətli hadisələrindən biri olub. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin inkişafında, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında, milli birlik və həmrəyliyimizin gücləndirilməsində son dərəcə böyük rol oynayıb".

Spiker deyib ki, son 22 il ərzində möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə partiyamız cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi ictimai-siyasi proseslərin hərəkətverici qüvvəsinə çevrilib: "Onu da deyim ki, bildiyiniz kimi, Milli Məclisə seçilmiş deputatların böyük əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləridir. Və bu, partiyanın cəmiyyətdə və xalq arasında nə qədər böyük nüfuza malik olduğunu göstərir. Yeni Azərbaycan Partiyası nəinki ölkəmizin, həm də Cənubi Qafqazın ən güclü siyasi təşkilatıdır".

S.Qafarova daha sonra deyib: "Yeni Azərbaycan Partiyasının yaradılmasının 33 illiyi münasibəti ilə mən partiyamızın sədri cənab İlham Əliyevi, partiya sədrinin birinci müavini hörmətli Mehriban xanım Əliyevanı, partiyanın bütün üzvlərini ürəkdən təbrik edirəm, xalqa və dövlətə xidmət yolunda onlara yeni uğurlar arzulayıram".

Deputatlar alqışlarla təbriklərə qoşulublar.

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

N 212 (8822) 22 noyabr 2025

# Zəngəzur dəhlizinin qiyməti artır - Mühüm yenilik

## Gürcüstanın narahatlığına son qoyulur

**"Tramp yolu"nun həyata keçirilməsi ilə bağlı siyasi-texniki çətinliklər var, bu mövzuda Ermənistan və ABŞ danışıqlar aparır. Çünki İran, ABŞ, Rusiya, Türkiyə, Azərbaycan və Ermənistanın maraqlarını uzlaşdırmaq asan deyil. Bununla belə, bu, mümkünsüz də deyil, sadəcə, çox ciddi iş tələb edir, hələ böyük yol qət edilməlidir".**

Bunu erməni politoloq Aleksandr İsgəndəryan deyib. O, prosesin mürəkkəb və uzunmüddətli olduğunu bildirib və dünyada buna bənzər çoxlu nümunələrin mövcudluğunu xatırladıb: "Mən həmişə Belarusla Rusiyanın Kalininqrad vilayətini birləşdirən yolu nümunə gətirirəm: o yol Litvanın ərazisindən keçir, halbuki Litva NATO və Avropa İttifaqının üzvüdür. Buna baxmayaraq, razılaşma var ki, Rusiya vətəndaşları Kalininqrada vizasız, hətta pasportsuz gedə bilirlər. Deməli, belə layihələr mümkündür, sadəcə, çox həssas və diqqətli iş tələb edir".

Bəzi ekspertlərin iddiasına görə, Zəngəzur dəhlizinin açılması Gürcüstana sərf etmir. Analitiklər bunu onunla əsaslandırırlar ki, buna qədər Azərbaycanın Türkiyə və Avropaya açılan bir çox əhəmiyyətli iqtisadi layihələri Gürcüstan üzərindən həyata keçirilib. Məhz bu səbəbdən Gürcüstan Zəngəzur dəhlizinin açılmasını nəqliyyat, logistika baxımından alternativ kimi qiymətləndirir.

"Ermənistan, Azərbaycan və Türkiyə arasında yeni marşrutların açılmasından sonra Gürcüstan tranzit yüklərinin 20%-ə qədərini itirmək riski ilə üzləşir".

Bunu bir müddət əvvəl Nəqliyyat Dəhlizləri Tədqiqatları Mərkəzinin direktoru Paata Tsaqareişvili demişdi. "Gürcüstan ərazisindən hər il təxminən 18-20 milyon ton yük daşınır. Bu miqyaslı itkilər olduqca ciddidir. Gürcüstan bu gün rəqabət qabiliyyətini qorumaq üçün addımlar atmalıdır: tarif siyasətini yenidən nəzərdən keçirməli, infrastrukturu inkişaf etdirməli və yük daşıyıcıları üçün stimullar təmin etməlidir", - o bildirib.

Zəngəzur dəhlizinin açılması Gürcüstana sərf edirmi? Gürcüstan dəhlizə hansı dəstəyi verə bilər? ABŞ-ın bununla bağlı istəklərində söhbət nədən gedə bilər? Nəhayət, erməni cəmiyyəti nə dərəcədə dəhliz rejiminə hazırdır?

Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, ABŞ Dövlət Departamentinin böyük müşaviri Conatan Askonasın Gürcüstana səfəri və rəsmi açıqlamasında TRIPP/Zəngəzur dəhlizi ilə bağlı məsləhətləşmələrə xüsusi yer verilməsi Cənubi Qafqazda geosiyasi dinamikanın yeni mərhələyə keçdiyini göstərir: "Bu danışıqlarda xüsusilə Gürcüstanın rolu diqqət mərkəzinə çıxır. Çünki regionda nəqliyyat-kommunikasiya xəritəsinin yenidən formalaşması məhz Tiflisin mövqeyindən də asılı olacaq. Zəngəzur dəhlizinin açılması əslində həm də Gürcüstan üçün mühüm imkanlar yaradır. Uzun illərdir Bakı-Tiflis-Qars xətti və digər mövcud marşrutlar sayəsində Gürcüstan Cənubi Qafqazın əsas tranzit qovşaqlarından biri kimi formalaşıb. Buna görə bəzi dairələr yeni marşrutların Gürcüstanın tranzit dominantlığını zəiflədə biləcəyini irəli sürür. Lakin daha realist yanaşma göstərir ki, Zəngəzur dəhlizinin açılması əksinə, regional yük axınlarının ümumi həcmini artıracaq. Bu halda yüklərin bir hissəsi alternativ yollarla daşınsa belə, ümumi tranzit həcminin yüksəlməsi Gürcüstanın üzərindən keçən daşımaların da artmasına səbəb ola bilər. Burada iki əsas mexanizm işə düşür: birincisi, Azərbaycan üzərindən keçəcək yüklərin sayının çoxalması Tiflis limanları, dəmir yolları və gömrük məntəqələri üçün əlavə gəlir mənbəyi formalaşdıracaq; ikincisi, regionda yeni nəqliyyat arteriyasının açılması Gürcüstanın logistika xəritəsində tamamlayıcı rol oynayan daşımaların genişlənməsinə səbəb olacaq. Bu baxımdan Gürcüstanın ziyan görməsi ehtimalı azdır, əksinə, Cənubi Qafqazın vahid tranzit məkanına çevrilməsi Gürcüstanın geoiqtisadi mövqeyini gücləndirə bilər".




ABŞ-nin maraqlarına gəlincə, politoloq dedi ki, Vaşinqton üçün Zəngəzur dəhlizi təkcə iqtisadi layihə deyil, Cənubi Qafqazda Avroatlantik təsirin gücləndirilməsi üçün strateji alətdir: "Bu layihə həm Rusiya təsirinin məhdudlaşdırılması, həm İranın regiondakı logistik rolunun balanslaşdırılması, həm də Avropa-Asiya ticarətinin diversifikasiyası baxımından Vaşinqton üçün əhəmiyyətlidir. ABŞ həm Azərbaycana, həm də Gürcüstana layihənin siyasi və institusional dəstəklə təmin edilməsində yardımçı olmaq istəyir və Tiflisin bu prosesdə "stabil tərəfdaş" kimi iştirakını vacib hesab edir".

Y.Bağırzadə qeyd etdi ki, Ermənistan cəmiyyətində isə dəhlizlə bağlı fikir ayrılığı qalmaqda davam edir: "Dəhlizin iqtisadi faydalarını başa düşənlər olsa da, xüsusilə də Paşinyanın müxalifəti dəhlizin açılmasını Ermənistanın "suverenliyinin itirilməsi", "təzyiq altında seçim" kimi təqdim edir. Bununla belə, Ermənistanın real geoiqtisadi maraqları uzunmüddətli perspektivdə kommunikasiyaların açılımını qaçılmaz edir.

Ümumi olaraq qeyd edim ki, Zəngəzur dəhlizi ətrafında gedən danışıqlar təkcə Azərbaycan və Ermənistanı deyil, bütövlükdə regionun iqtisadi-siyasi arxitekturasını yenidən formalaşdırır. Gürcüstanın isə bu prosesdən əlavə qazanc əldə etmək imkanı böyükdür".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# İran təkbaşına Xəzərin hüquqi statusuna qarşı - Tehranın dərdi

## Cənub qonşumuz həm də türk dövlətlərinin güclənməməsi üçün son cəhdlərini edir; amma artıq "tunelin sonunda işıq görünür"...

**Noyabrın 18-19-da İranın Gilan vilayətinin Rəşt şəhərində Xəzəryanı ölkələrin sahilyanı regionlarının rəhbərlərinin görüşü keçirilib. Görüşdə beş Xəzəryanı dövlətin (Azərbaycan, Rusiya, İran, Qazaxıstan, Türkmənistan) nümayəndələri iştirak ediblər.**

İki gün davam edən görüşdə qarşılıqlı ticarət əlaqələrinin inkişafı, nəqliyyat-tranzit məsələləri, balıqçılıq, qarşılıqlı sərmayə yatırımı, ekologiya, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin infrastrukturu və digər məsələlər müzakirə olunub. Azərbaycanı tədbirdə Xəzər dənizi sahilində yerləşən rayonların rəhbərləri təmsil ediblər.




Qeyd edək ki, İran Xəzərin hüquqi statusu haqqında konvensiyanı ratifikasiya etməyən yeganə sahilyanı ölkədir.

Xəzərin statusu məsələsində İran hər zaman qeyri-konstruktiv mövqe tutub. İran Xəzərin göl hesab edərək bildirirdi ki, Xəzərin bütün sərvətləri sahilyanı ölkələr arasında bərabər şəkildə bölünməlidir. Ancaq Azərbaycan daxil 4 sahilyanı dövlət Xəzəri beynəlxalq aləmdə qəbul olunduğu kimi, dəniz statusunda görmək istəyirdi. Nəhayət, 20 ildən çox çəkən müzakirələrdən sonra İran Xəzərin indiki statusu ilə razılaşdı. 2018-ci ilin avqustunda Xəzərin statusuna dair sahilyanı ölkələr tərəfindən konvensiya imzalandı. Lakin indiyə qədər konvensiyanı yeganə olaraq İran parlamenti ratifikasiya etməyib.

İranın mövqeyini necə dəyişmək olar ki, konvensiyanı ratifikasiya etsin?

Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin deputatı Elşən Musayev "Yeni Müsavat"a açıqlamasında istənilən halda bu məsələnin həll variantından başqa yolu olmadığını söylədi: "Xəzərin statusuna dair prosesin yekunlaşması və hüquqi prosedurların bitməsi üçün ratifikasiya gərəkdir. Həmin ratifikasiyanı isə yalnız İran uzatdı və bu günə qədər də uzatmağa davam edir. Səbəb yalnız "göl" və ya "dəniz" dilemmasıdırmı? Sanmıram. Çünki problem sadəcə bu olsaydı, düşünürəm, çoxdan öz həllini tapardı. Məncə, İranın prosesi yubatmasının əsas səbəbi ya bizə məlum olmayan hansısa siyasi gedişlərdir, ya da kənardan kimlərinsə təsiridir.

Hər halda mövzu ətrafında son müzakirələr İranda keçirildi, təşəbbüs İrandan gəldi və tədbirə onların ev sahibliyi etməsi uzun müddətdən sonra hər kəsdə müəyyən ümidlər yaratdı. Odur ki, bir az gözləyək və nəticələrə uyğun qərar verək. Hər halda məsələ əvvələxır öz müsbət həllini tapmalıdır. Çünki, bu həll və yekun sadəcə konkret dövlətlər üçün deyil, bütünlükdə region üçün strateji əhəmiyyət daşıyır".

Tanınmış hüquqşünas, sabiq millət vəkili Qulamhüseyn Əlibəylinin fikrincə, Xəzərin müəyyənləşməsi tarixən mübahisəli olub: "Dünya okeanına çıxışın olmaması onu ən böyük göl kimi xarakterizə etməyə əsas versə də, öz ölçülərinə və tarixən formalaşmış mövqeyə görə Xəzər dəniz hesab olunub. Hələ 1828-ci il Türkmənçay müqaviləsinə görə İran Xəzərdə donanma saxlamaq hüququndan məhrum olunub. Sonradan 1921-ci ildə RSFSR ilə İran arasında bağlanmış müqaviləyə görə Xəzər faktiki olaraq hər iki dövlətə mənsub olan də daxili su hövzəsi kimi müəyyən olundu və İranın da Xəzərdə donanma saxlamaq hüququ bərpa edildi. SSRİ ilə İran arasında bağlanmış 1927 və 1940-cı il müqavilələri Xəzərin 2 sahilyanı dövlətə mənsub olan daxili su hövzəsi statusunu qəti olaraq təsdiqlədi. SSRİ dövründə Xəzər akvatoriyası faktiki olaraq RSFSR, Azərbaycan, Qazaxıstan, Türkmənistan və İran arasında sektorlara bölünmüşdü. BMT-nin 1982-ci il Dəniz Konvensiyasının müddəaları Xəzərə şamil olunmurdu. SSRİ-nin dağılması və Xəzəryanı yeni müstəqil dövlətlərin (Azərbaycan, Qazaxıstan və Türkmənistan) yaranması Xəzərin yeni statusunun müəyyənləşdirilməsi məsələsini gündəmə gətirdi. Və Xəzərin statusu haqqında müxtəlif fikirlər səslənməyə başladı. Rusiya ilk dövrdə Xəzərin yalnız iki dövlətə - Rusiya və İrana mənsubluğunu iddia etsə də, sonradan yeni statusun bütün Xəzəryanı dövlətlərin iştirakı ilə müəyyən olunması üçün danışıqlar aparılmasını mümkün hesab etdi. Azərbaycan Xəzər akvatoriyasının faktiki olaraq sektorlara bölünməsinin saxlanmasına tərəfdar oldu. 1995-ci il Konstitusiyasında Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi Azərbaycan Respublikası ərazisinin tərkib hissəsi kimi təsbit edildi. İran Xəzərin bərabər sektorlara bölünməsini iddia edirdi.

2018-ci ildə imzalanmış konvensiya mahiyyət üzrə problemi həll etməyə yönəldi. Belə ki, Xəzər dənizinin akvatoriyasının daxili sular, ərazi suları, balıqçılıq zonaları və ümumi su məkanına, Xəzər dənizinin dibinin və təkinin isə sektorlara bölünməsi nəzərdə tutuldu. Bu variant bütün Xəzəryanı dövlətləri qane etsə də, sonradan İran faktiki olaraq rəsmən elan etmədən mövqeyini dəyişdi. Konvensiyanı imzalamış dövlətlərdən 4-ü (Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan) onu təsdiq etsə də, İran hələki bunu etməyib və nəticədə konvensiya rəsmən hüquqi qüvvəyə minməyib. Bu da gələcəkdə İranın Xəzərin statusunu mübahisələndirmək niyyətindən xəbər verir və regionda təhlükəsizlik üçün risklər yaradır. İmzaladığı sənədi, o cümlədən Xəzərin statusu haqqında konvensiyanı təsdiq etməmək İrana başucalığı gətirmir, bu dövlətə beynəlxalq aləmdə etimadın itməsi ilə nəticələnə bilər. İndiki halda həmin konvensiyanın təsdiq olunmasına İranı məcbur etmək mexanizmi yoxdur. Yalnız konvensiyanı təsdiq etmiş digər sahilyanı dövlətlərin diplomatik səyləri ilə buna nail olmaq olar. Bu gün İranın konvensiyanı təsdiq etməsi digər sahilyanı dövlətlərdən daha çox İranın özünə lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ukrayna üçün 28 bəndlik tələ, yoxsa...

## Zelenski Trampla razılaşmağa məcburdur

**ABŞ-ın Ukrayna böhranının həlli üçün 28 bəndlik həll planı hazırladığı haqda KİV-də məlumat yayılıb. Hətta prezident Trampın onu təsdiqlədiyi deyilir. Sənəd rəsmən açıqlanmasa da, məlumatlara görə, layihədə daha çox Kiyevdən güzəşt tələb olunur (Donbasın tam Rusiyaya verilməsi, ordunun sayının iki dəfə azadılması, NATO-ya üzvlükdən imtina, rus dilinin və rus kilsəsinin statusu və s.).**

Rusiya və ABŞ tərəfindən Ukraynadan xəbərsiz hazırlandığı deyilən planın yeni versiyasına görə, Zaporojye və Xerson istiqamətindəki cəbhə xətti dondurulacaq, lakin bəzi ərazilər Rusiya tərəfindən Ukraynaya qaytarılacaq. Ağ Ev belə düşünür ki, müharibə davam edərsə, Ukrayna onsuz da bu ərazini itirəcək. Ona görə də Ukraynanın maraqlarına uyğun olan - hazırda razılaşmaya nail olmaqdır.

Bildirilir ki, sülh planına əsasən, Donbas əraziləri Rusiyanın nəzarəti altında olsa da, onları demilitarizasiya zonası elan edəcəklər və Rusiya orada qoşun yerləşdirə bilməyəcək: "Putinin Rusiya konstitusiyasına daxil etdiyi Xerson və Zaporojye vilayətlərinə gəldikdə isə, oradakı nəzarət xətləri "dondurulacaq".

Plana əsasən, ABŞ və digər ölkələr Krım və Donbası Rusiyanın suveren ərazisi kimi tanıyacaq, lakin Ukraynadan bunu tələb etməyəcəklər.

Lakin Moskva da belə bir planın mövcud olduğunu rəsmən təsdiqləməyib.

Bu arada Britaniyanın "The Telegraph" qəzeti yazıb ki, Rusiya ilə Ukrayna arasındakı müharibənin həlli üçün təklif olunan planda Donbas üçün "icarə mexanizmi" təklif olunur. İddialara görə, Rusiya minerallarla zəngin bölgəyə nəzarət üçün Ukraynaya maliyyə kompensasiyası ödəyəcək. Yeni qanuni olaraq, Donbas faktiki olaraq Rusiya tərəfindən idarə olunsa da, Ukraynanın bir hissəsi olaraq qalacaq.

Bəs Tramp planı reallaşa bilərmi? Məhz bu ərəfədə V.Zelenskinin Türkiyə səfəri hansı məqsəd güdürdü?

Qeyd edək ki, haqqında danışılan plan Rusiyaya ciddi güzəştlər səbəbindən ABŞ Konqresindəki Ukrayna tərəfdarları üçün də gözlənilməz olub və narazılıq yaradıb. Eyni zamanda, onun reallaşacağına ciddi şübhələr var. Nəticə necə ola bilər?

Siyasi şərhçi Heydər Oğuz "Yeni Müsavat"a açıqlamasında deyib ki, ABŞ mediasında yer alan xəbərlərə inansaq, Ukrayna prezidenti Volodimir Zelenski də Tramp tərəfindən xeyir-duası verilən bu 28 maddəlik sülh planı ilə artıq razılaşıb: "Adı açıqlanmayan ukraynalı məmur "Axios" nəşrinə bildirib ki, Pentaqon rəsmisi Zelenskiyə planın yazılı surətini verib, Ukrayna prezidenti isə sənədin imzalanması üçün nəzərdə tutulan "sıx qrafiklə" razılaşıb. Mənbənin iddiasına görə, görüş zamanı "planın şok təfərrüatlarına" baxmayaraq, Ukrayna liderinin buna reaksiyası əsasən yumşaq olub. Həmçinin məlum olub ki, Daniel Driskollun nümayəndə heyəti əvvəlcə hərbi texnologiya və strategiyanı müzakirə etmək üçün Kiyevə getməyi planlaşdırıb, lakin sonra Ağ Ev ondan ABŞ-ın xüsusi elçisi Stiv Vitkoff və dövlət katibi Marko Rubionun adından Zelenski ilə "danışıqların başlanmasına" kömək etməsini istəyib.

Ukrayna tərəfi 28 maddəlik plan barədə konkret fikir bəyan etməsə də, Zelenkinin mövzu ilə bağlı açıqlamaları "Axios"un iddialarını təsdiqləyir. Zelenski bildirib ki, ABŞ-ın ordu katibi Daniel Driskoll ilə görüşüb və onunla həqiqi sülhə nail olmaq variantlarını, işin mərhələlərini və dialoq formatlarını, həmçinin diplomatiya üçün yeni təkanlarını müzakirə edib. "Komandalarımız - Ukrayna və ABŞ - müharibəni bitirmək planı üzərində işləyəcəklər. Biz konstruktiv, dürüst, operativ işə hazırıq", - deyə Zelenski əlavə edib".

İddialara görə, Zelenski həmçinin Driskollun diqqətinə çatdırıb ki, Rusiya bir gün əvvəl Ternopol şəhərinə Kh-101 raketləri ilə hücum edib. Hücum zamanı atılan və bir hündürmərtəbəli binanı yerlə yeksan edən raketin 2025-ci ildə istehsal olunduğu müəyyənləşdirilib. Raketin 175 hissəsi xarici komponentdən ibarət imiş və onlar Rusiyaya qarşı tətbiq olunan sanksiyaları pozaraq Rusiyaya keçirilib. Məlumatda konkret olaraq hansı xarici dövlətdən söhbət getdiyi bildirilməyib. Amma böyük ehtimalla, həmin xarici dövlətlər arasında NATO üzvləri, bəlkə də ABŞ da var. Belə çıxır ki, Ukraynanın müttəfiqi sayılan Qərb dövlətləri sözdə guya Rusiyaya qarşı sanksiyalar tətbiq edir, əslində isə ona gizli yollarla ən müasir silahların komponentlərini verirmişlər. Əks halda, həmin komponentlər yalnız Rusiyanın müttəfiqləri olan ölkələr tərəfindən verilsəydi, Zelenski buna heyrətlənməz və yəqin ki bu təfərrüatı Pentaqon yetkilisinin diqqətinə çatdırmazdı".

Heydər Oğuzun fikrincə, bütün bu ayrıntılar Ukraynanın küreyini söykədiyi Qərb dövlətlərinin, o cümlədən ABŞ-ın nə qədər məkrli siyasət yürütdüyünü bir daha təsdiqləyir.

Siyasi şərhçi onu da vurğulayıb ki, bir çox Ukrayna analitikləri ABŞ tərəfindən hazırlanıb rəsmi Kiyevə təqdim olunan bu sülh planını açıq şəkildə kapitulyasiya aktı kimi qiymətləndirir və Ukraynanın milli maraqlarının nəzərə alınmadığına inanırlar: "Bildirilir ki, planın yaradılmasında bir sıra ABŞ və Rusiya rəsmilərinin əli olub. Onun ərsəyə gəlməsinə Moskva tərəfdən Kirill Dmitriev dəstək verib. ABŞ tərəfindən isə Stiv Vitkof, Marko Rubio, J.D. Vans və Trampın yəhudi kürəkəni Jared Kuşner də daxil olmaqla mövcud administrasiyanın hardasa ən aparıcı fiqurları yer alıb. Görünən budur ki, Ukrayna üçün birmənalı qarşılanmayan sülh planı ABŞ və Rusiya rəsmilərinin birgə səyləri ilə hazırlanıb. Plan təkcə Rusiyanın işğal etdiyi ərazilər öz əlində saxlamasını deyil, həm də Kiyevin tərksilah edilməsini nəzərdə tutur. Sənəd həmçinin Ukraynanı Rusiyanın işğal etdiyi ərazilərdən imtina etməyə çağırır. Məhz bu baxımdan onu tam təslimiyyət aktı kimi qiymətləndirənlər haqsız deyillər.

Bəs, Zelenski bu sənəd layihəsi ilə niyə razılaşıb?

Həmsöhbətimizin fikrincə, bunun bir neçə səbəbi var: "Əvvəla, Zelenski də anlayır ki, bu zamana qədər sözdə Ukraynanı dəstəkləyən Qərb dövlətləri onlardan gözlənilən əzmi axıra qədər göstərmək əzmində deyillər. Ən kritik anda Ukraynanı Rusiya qarşısında yalnız buraxıb geri çəkilə bilərlər. Əslində Qərb ölkələri üçün Ukraynanın öz ərazi bütövlüyünü və suverenliyini qoruması da önəmli deyil. Önəmli olan Rusiyanın bu müharibədə tükəndirilməsidir. Amma məsələ burasındadır ki, müharibə təkcə Rusiyanı tükəndirmir. Həm də Rusiyadan insan resursları və silah gücü baxımından xeyli zəif olan Ukrayna da getdikcə tənəzzülə sürüklənir, insanları gün keçdikcə azalır və demoqrafik böhranla üzləşir. Müharibədən əvvəl, 2017-ci ildə 45 milyona yaxın əhalisi olan Ukrayna 2022-ci ildə Rusiya ilə ağır döyüşlərə atıldığından etibarən "əriməyə" başlayıb. 2023-cü ildə Ukrayna əhalisi 42 milyona qədər düşdü. 2025-ci ildə bu rəqəm 28 milyona qədər enib. Hər gün minlərlə, on minlətlə insanın ölkədən qaçdığını nəzərə alsaq, müharibə bitənə qədər bu say 25 milyona qədər azala bilər. Üstəlik, getdikcə əriyən əhalinin böyük qismi Ukrayna iqtisadiyyatını dirçəltmə potensialına malik gənclərdən ibarətdir. Hesablamalara görə, Ukraynada 2021-ci illə müqayisədə əmək qabiliyyətli əhalinin sayı 40% "əriyib". Bu isə müharibədən sonra da Ukraynada iqtisadi vəziyyətin düzəlməyəcəyinə işarədir.

İkincisi, Ukrayna özünün ən önəmli tərəfdaşını - ABŞ-ı itirmiş durumdadır. ABŞ nəinki Ukraynanı əvvəlki kimi dəstəkləmir, hətta Rusiya ilə məxfi danışıqlara girib onun maraqları əleyhinə sülh sazişi hazırlayır.

Bir çoxları bunu Tramp hakimiyyətinin ənənəvi müttəfiqlərinə qarşı xəyanəti kimi qiymətləndirsələr də, əslində isə sözügedən mövqe dəyişikliyi yalnız hansısa hakimiyyətin yürütdüyü siyasətlə bağlı deyil. ABŞ II Dünya savaşından sonra təhvil aldığı supergüc vəzifəsini yerinə yetirə bilmir. Avropanı, Asiyadakı inkişaf etmiş sənaye ölkələrinin inkişafını artıq dəstəkləmək gücü qalmamışdı. Bu missiyanı yerinə yetirdikcə, hər il 3.5 trilyon dollar borclanırdı. 2025-ci ilin birinci yarısında 38 trilyon dolları keçən borc bataqlığından xilas olması üçün ABŞ bəzi xərcləri azaltmağa məhkumdur. Bu məqsədlə də ilk növbədə hərbi xərclərini azaltmalı, dünyanın müxtəlif bölgələrini başqalarına buraxmalıdır. Bildirildiyinə görə, Donald Trampın NATO alyansındakı nümayəndəsi Metyu Uitaker bu yaxınlarda Almaniya rəsmiləri ilə danışıqlar apararaq "qoca" qitədəki funksiyasını Berlinə həvalə etməyə çalışmışdı. Yaxın Şərqdə isə bu missiyanı Türkiyəyə və Səudiyyə Ərəbistanının öhdəsinə buraxmağı düşünür. Yəqin ki, Uzaq Şərqdə də bu missiyanı Yaponiya və Cənubi Koreyaya həvalə edəcək. Özü isə Amerika qitəsinə çəkilərək xüsusilə qitənin cənub hissəsinə tam nəzarət altına almağa çalışacaq. Sözsüz ki, könüllü izoliyasiya siyasətinə getməyi planlaşdırdığı bir zamanda onun Ukraynanı dəstəkləmək kimi bir qayğısı da qalmayıb.

Üçüncüsü, ABŞ özünün ən ciddi rəqibi kimi gördüyü Çinlə rəqabətdə Rusiyanı da öz yanına almaq istəyir. Bunun üçün də Moskvaya hansısa həvəsləndirici güzəştlər verməyə məhkumdur. Rusiya üçün ən yaxşı hədiyyə isə Ukrayna ola bilər".

Heydər Oğuzun fikrincə, son zamanlar Ukrayna prezidenti Volodimir Zelenski ətrafında korrupsiya qalmaqalının ortaya çıxması və getdikcə geniş vüsət alması da bu məqamda təsadüfi sayıla bilməz: "Məlum olduğu kimi, Ukraynanın müstəqil istintaq qrupu sayılan NABU-nun bu çalışmaları ABŞ-ın nüfuzlu daxili kəşfiyyat və hüquq-mühafizə orqanı kimi tanınan Federal Təhqiqatlar Bürosu tərəfindən dəstəklənir. Sözsüz ki, FBI-nin bu istiqamətdə apardığı çalışmaların əsl hədəfi Ukraynanı korrupsiyadan təmizləmək deyil. Əksinə, Zelenski hökumətini çətin faktlar qarşısında qoyaraq, onu öz iradəsinə tabe etdirməkdir. Zelenski Trampın "sülh" təkliflərini rədd etməkdə israrlı olarsa, daha ağır ittihamlar ortaya saçılacaq. Mümkündür ki, Zelenski də məhz bu ehtimalı nəzərə alıb Tramp hakimiyyətinin mövqeyi ilə razılaşmaq məcburiyyətində qalıb. Əgər həqiqətən də belədirsə, yaxın zamanlarda rəsmi Kiyevin ona təlqin olunan "sülh" təkliflərini həyata keçirməyə başladığı barədə məlumatlar alacağıq".



**E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 212 (8822) 22 noyabr 2025



# Əcəl nərdivanı

Zamin HACI
zaminhaci@gmail.com

**4 gəncin faciəli ölümündə günahkar kimdir? Niyə ofisiantlar ümumiyyətlə nərdivan daşımalı idilər? Gənclər arasında işsizlik faizi nə qədərdir? Ofisiant, kuryer və sairə işlərdə çalışan gənclərin əmək hüquqlarını qoruyan idarə varmı?**

Bu sualların indi, prinsipcə, heç bir əhəmiyyəti yoxdur - insanlar ölüb və onların üzərində qaldırılan torpaq təpəciyini belə suallar maraqlandırmır. Sadəcə, gələcək üçün yazdım, getdi. Guya gələcəkdə belə hadisələr təkrarlanmasın deyə. Məqsədim ülvi olsa da, nə qədər mənasız, ünvansız, absurd olduğunu yaxşı dərk edirəm. Anadoludakı qardaşlarımızda bu tip hallarda çəkilən misal var: "Ataş düşdüyü yeri yakar". Yəni, indi nə oldusa, ölənlərin ailəsinə oldu. Onların dərdini, kədərini, faciəsini heç birimiz anlaya bilmərik.

Ancaq hər belə hadisədəki kimi, yeni elmi-ictimai, sosial-fiziki biliklərə çatdıq. Məsələn, öyrəndik ki, sən demə, ölümə səbəb olan yüksək gərginlikli elektrik xətti... özəl şirkətə məxsus imiş. Sən demə, ölkəmizdə elektrik şəbəkələri təzədən özəlləşdirilib, amma bizə xəbər verməyiblər. Anan ölsün, Hüseyn Arabul... Bə sənin parik taxıb, üzünü rəngləyib rezin qayıqda Gürcüstana qaçmaq cəhdinin nə mənası varmış? Elə bir az türmədə gözləsən təzədən özəl şəbəkə verərmişlər.

Kanalizasiya quyusuna düşərək həlak olan, meyiti yalnız Hövsan kollektorunun ucunda ələ gələn cavanın əhvalatında da buna oxşar izahat vermişdilər. Sukanal idarəsi israrla məsuliyyət tələb edən, pis çıxmasın, alov püskürən xalqa demişdi ki, orda kanalizasiyanı tikinti malı satan dükançılar əcəl quyusuna döndəriblər, bizim günahımız yoxdur.

Əlbəttə. Bütün yaxşı işlər hökumətlikdir, bütün pis işlər camaatlıq. Özümüzü apara bilmirik ki. Birtəhər əl-qolumuzdan tutub fırladırlar, yoxsa çoxdan qırılmışdıq. Bu şəraitə görə işıq idarəsinə dərin minnətdarlığımızı bildirir, bir daha ölmək istəyəndə nərdivanımızı onların dirəyinə söykəməyə and içirik. Söz veriblər, bütün qaranlıq işlərimizə işıq çəkəcəklər. Hələ hovuza su da buraxılacaq, noyabr isti keçməyə bir qədər davam eləsin...

Hələ sən obyektin adına bax: "Lake Hotel". Biləcəridə sanki ingilislər yaşayır. Özü də nəcis və mazut iyi verən qır gölünün qırağında yaşamağa gəlirmişlər. Neçə dəfə mən şahzadə Endryünü və Harrini Biləcəridə "Ploşadda" eşşək ətindən halal dönər alıb vağzaldan keçən qatarları izləyərkən görmüşəm.

Bəs ana dilini qoruyan dövlətimiz niyə buna əncam çəkmir? Təklif edirəm, indən belə oranı "Göl hoteli" adlandırsınlar. Məcburən. Hətta daha mənalı-məzmunlu, tarixi irsi qorumaq baxımından "Öl hoteli" də ola bilər.

Ancaq vəziyyəti, ədalət naminə, tam tədbirsizlik də adlandırmaq olmaz. Elə bayaq söz açdığım kanalizasiya qurbanının istintaqı deyəsən bitib, məhkəmə olmalıdır və kanalizasiya idarəsinin məsuliyyətinə baxacaqlar. Yəqin qapağı vaxtında bağlamayan hansısa yetimə 2-3 il verərlər. Daha müdiri tutmaq olmaz ki. Müdirlərimiz hamısı sağlamlıq baxımından zəif olur, içəridə qalmaq onlara çətindir, humanist hökumətimizə yaraşmaz belə qiymətli insan kapitalına işgəncə versin. 3 il verirsən, 3 ay sonra ev dustağı, 3 gün sonra da maşallah, təzədən olur el ağsaqqalı, ya da ağbirçəyi. Lap apar elçiliyə. Ölənlə ölmək olmaz axı.

Az qala yadımdan çıxmışdı, o sığınacaqda intihar edən gözəl qız uşağına görə hansısa məmurun vicdanı sızıldayacaqmı? Axı dövləti biz həm də bütün yetimlərə sığınacaq olsun deyə yaratmışıq.

Ya mən səhv bilirəm, onlar özü öz başına çarə qılmalıdır?



# İsrailli nazir Bakının müttəfiqi haqda elə sözlər dedi ki... - reaksiya

## Azərbaycan mövcud durumdan çox narahatdır; Ankara-Təl-Əviv gərginliyi də dərinləşməkdədir

**"Türkiyə bu gün İsrail dövləti üçün ən ciddi təhlükədir". Bunu İsrailin diasporla iş üzrə naziri Amiçay Çikli deyib. "Türkiyənin təcrid olunması üçün xarici əlaqələrdə hər şeyi etməliyik", - nazir bildirib.**

Ankara və Təl-Əviv arasında münasibətlərin Qəzza hadisələrinə görə ən aşağı səviyyəyə düşdüyü sirr deyil.

Nə vaxtsa əlaqələrin əvvəlki normal səviyyəyə qayıtması mümkün olacaqmı? Bunun üçün daha çox hansı tərəf addım atmalıdır?

Sabiq maliyyə naziri, professor, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov "Yeni Müsavat"da mövcud durumdan Azərbaycan tərəfin çox narahat olduğunu söylədi: "Hər iki tərəf bizim yaxın müttəfiqimiz və dostumuzdur. Türkiyə isə həm də bizə qardaş ölkədir - kökümüz bir, dilimiz bir, dinimiz birdir. Bu gün yəhudilərin dünyada bəlkə də yaşadıqları ən təhlükəsiz məkan Azərbaycandır. Onlar bunu yaxşı bilir və dəyərləndirirlər. Ona görə də İsrail dövlətinin rəsmiləri və bütövlükdə yəhudilər Azərbaycanla dostluqdan məmnundurlar 44 günlük müharibədə bu dost və qardaş ölkələrin hər biri bizə ürəkdən dəstək verdilər.

Bütün bunların fonunda bu gün Türkiyə ilə İsrail arasında baş verənlər ən çox bizə təsir edir. Lakin təəssüf ki, Azərbaycan hökumətinin bu istiqamətdə səyləri də hələ ki bir nəticə vermir. Türkiyə və İsrailin hər birinin yerləşdikləri bölgədə öz maraqları var və onların hər biri nə olursa olsun, bu maraqları maksimum reallaşdırmağa çalışırlar. Gərginliyin bugünkü səviyyəsi də bunu deməyə əsas verir ki, tərəflər bir-birinə güzəştə getməkdən, qarşılıqlı anlaşmaqdan uzaqdırlar. Ancaq böyük regionun bu iki güc sahibi, nəhayət, tək öz dövlətlərinin deyil, regionun da təhlükəsizliyi naminə bir araya gəlməkdən başqa yol olmadığını bir gerçək kimi dəyərləndirməli və qəbul etməlidilər. Türkiyə ilə İsrail arasında hərbi münaqişə nə Türkiyəyə, nə İsrailə, nə də regionun hər hansı bir ölkəsinə lazımdır. Belə bir münaqişə baş verərsə, bu, bütövlükdə beynəlxalq aləm üçün ciddi fəsadlar yaradacaq qədər təhlükəli ola bilər. Dünya dörd ildir ki, Rusiyanın Ukraynaya hərbi təcavüzünü dayandıra bilmir. Bu arada Türkiyə-İsrail hərbi münaqişəsi ciddi silkələnmələrə və çox acı nəticələrə gətirib çıxara bilər. Odur ki, tərəflər özlərində bir araya gəlmək üçün güc tapmağa məkumdular...

Türkiyə-İsrail münasibətlərində yaranmış bugünkü gərginliyin əsas günahkarlarından biri İrandır. İran müsəlman dövləti olaraq on illər boyu İsraili məhv edəcəyi ilə hədələməsəydi və bu məqsədi reallaşdırmaq üçün yüz milyardlarla dollar xərcləyib Yaxın Şərq bölgəsində onlarla proksilər yaratmasaydı, bəlkə də biz bu gün Türkiyə ilə İsrail arasında baş verənlərə şahidlik etməzdik".

"Ədalət" partiyasının sədri Mütəllim Rəhimlinin sözlərinə görə, İsrail-Türkiyə münasibətiləri durmadan gərginləşməkdədir: "Hər iki dövlət regional liderlik uğrunda mübarizə aparır və heç biri də geri çəkilmək niyyətində deyil. Dünyada dövlətlərin münasibətlərinin yenidən formalaşdırıldığı və nüfuz dairəsi uğrunda mübarizə getdiyi bir vaxtda regionun iki güclü dövləti olaraq Türkiyə və İsrailin qarşı-qarşıya durması gözlənilən idi.

İsrail özünün siyasi, hərbi gücündən və beynəlxalq dəstəyindən istifadə edərək region dövlətləri arasında parçalanma və gərginlik yaratmaqla onlar üzərində dominantlıq etməkdədir. 1948-ci ildə yaradılandan bəri BMT tərəfindən tanınan ərazilərini xeyli genişləndirməyə nail olub. Hazırda da qonşuları ilə müharibə vəziyyətindədir.

"Vəd edilmiş torpaqlar" dini inancı İsraili reallıqdan çıxararaq təhlükəli oyunçuya çevirib. Türkiyənin Adana, Qaziantep, Van, Diyarbəkir və ətraf əraziləri, Səudiyyə Ərəbistanının şimalı, Təbuk və əsasən vaxtilə yəhudilərin yaşamış olduğu Xeybər adlanan ərazilər "Böyük İsrail"in" ərazisi "sayılır". Vaxtilə Misirin Sina yarımadasını, Suriyanın Qolan təpələrini, Fələstinin əsas ərazisinin indi də davam edən işğalı "Böyük İsrail" planının bir hissəsidir. 2025-ci ildə bütün dünyanın gözü qarşısında İsrail sözün həqiqi mənasında Qəzzanın altını üstünə çevirdi, əhalini öldürdü, yaxud köçməyə məcbur etdi.

İsrailin region üçün belə təhlükəli oyunlarına qarşı yalnız Türkiyə cəsarətli şəkildə müqavimət göstərir. Buna görə də Türkiyə faktiki olaraq İsrailin planlarının qarşısında böyük əngəl kimi görsənir. Türkiyə İsrailə qarşı parçalanmış ərəb ölkələrini səfərbər etmək potensialına malikdir. Bu isə İsrail üçün qorxunc və arzuolunmaz amil hesab olunur. Türkiyənin belə davranışı ərəb ölkələri və xalqları üçün də ilhamverici mənbə ola bilər. Bundan başqa Türkiyənin malik olduğu hərbi potensial və hər il onu artırmaq əzmi də İsraili narahat edir. Ən müasir silahlara və hava hücumlarından müdafiə vasitələrinə malik olsa da ərazisinin kiçikliyi İsrailin zəif yeridir. Bu amil onu Türkiyənin qarşısında gücsüz edir. Buna baxmayaraq, bu yaxınlarda İsrailin keçmiş hərbi rəhbərlərindən biri ölkəsinin qısa zaman ərzində Türkiyəyə qalib gələ biləcəyini iddia etmişdi. Təbii ki, bu açıqlama Türkiyənin hərbi, siyasi və diplomatik gücünün doğurduğu narahatlıqdan qaynaqlanır.

Türkiyənin Qətərlə qurduğu əməkdaşlıq rəsmi Dohanı İsrailin basqısından qurtarıb. Səudiyyə Ərəbistanı, Misir, Suriya, Fələstinlə yaradılan münasibətlər də İsraili ciddi narahat etməyə bilməz.

Silahlanmaya fövqəladə dərəcədə diqqət yetirən İsrail artıq Türkiyənin regional iddialarının qarşısında aciz vəziyyətə düşməkdədir. Müharibə ilə onun Türkiyəyə qalib gəlmək şansı yoxdur. Bu halda ərəb ölkələri də Türkiyəyə dəstək verə və müsəlman həmrəyliyi nümayiş etdirə bilərlər. Ona görə də İsrail alternativ variantdan istifadə haqqında düşünməyə başlayıb. Bu da Türkiyəyə beynəlxalq səviyyədə təzyiq göstərilməsi və onun təcrid olunmasıdır. Bu sınaqdan çıxmış variantdır. Lakin artıq bununla Türkiyəni dayandırmaq mümkün deyil. Çünki o tək deyil və onunla birlikdə olan İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı var. Hazırda Türkiyə-İsrail münasibətlərinin normallaşmasından danışmaq çox tezdir. Hətta nəzəri olaraq mümkün deyil. Ona görə də yaxın gələcəkdə gərginliyin artacağını müşahidə edə bilərik".

Cavanşir ABBASLI
"Yeni Müsavat"

# İrəvanın heyrətamiz yalanı - Bakı və Ankaranın arasına girib...

## Türkiyə ilə əlaqələrin normallaşmasına Ermənistan yox, Azərbaycan maneə yaradır?

**Ermənistan xarici işlər naziri Ararat Mirzəyan qəribə açıqlama verib. Öncə o bildirib ki, Türkiyə ilə diplomatik münasibətlərin qurulması və sərhədlərin açılması Ermənistan üçün mühüm prioritetdir. Ardınca qeyd edib ki, İrəvan eyni zamanda, Azərbaycanla əldə olunan sülhün institusional şəkildə möhkəmləndirilməsində də maraqlıdır və hər iki istiqamətdə "səmimi səylər" göstərir.**

Daha sonra Mirzəyan iddia edib ki, Ankara ilə normallaşma prosesi guya Bakı ilə sülh danışıqlarından asılı deyil. Bununla belə, o, iki xətt arasında müsbət qarşılıqlı təsirin mümkünlüyünü istisna etməyib: "Əgər bu iki proses arasında səbəb-nəticə əlaqəsi axtarsaq, tam əminliklə deyə bilərik ki, Türkiyə ilə münasibətlərin tam tənzimlənməsi Ermənistan-Azərbaycan normallaşmasına mənfi deyil, əksinə, müsbət təsir göstərə bilər".

Beləcə, erməni XİN başçısı yenə "atı arabanın arxasına" qoşmağa çalışıb. Çünki cəm iki gün öncə Türkiyə xarici işlər naziri Hakan Fidan demişdi ki, Ankaranın İrəvanla diplomatik münasibətləri yalnız Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra normallaşa bilər. "Azərbaycan və Ermənistan sülh müqaviləsini imzalayanda biz də Ermənistanla münasibətləri normallaşdırmağa hazır olacağıq", - Fidan vurğulayıb və onu da əlavə edib ki, Türkiyə eyni mövqeni dəfələrlə (!!) bəyan edib və bu siyasətə sadiqdir.

O zaman Mirzəyanın bunun ziddinə fikir söyləməsinin anlamı nə? İrəvan Bakı və Ankaranın arasını dəyəcəyinəmi ümid edir? Yəni ki, Türkiyə ilə əlaqələrin normallaşmasına Ermənistan yox, Azərbaycan maneə yaradır...

Professor Qabil Hüseynlinin sözlərinə görə, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması Azərbaycan-Ermənistan sülh prosesi ilə sinxronluq təşkil edir. Onun fikrincə, Bakı və Ankara "saat əqrəbləri" tutuşdurur və koordinasiyalı şəkildə hərəkət edir. "Bu da konfidensial addımlar deyil. Azərbaycan və Türkiyə müttəfiq güclər olaraq bir çox məsələlərdə ortaq mövqedən çıxış edirlər. Biz olmayan tribunada Türkiyə sözümüzü deyir, Türkiyə olmayan platformada biz qardaş mesajını çatdırırıq. Bu baxımdan, Ermənistanla münasibətlər də paralel şəkildə inkişaf etməkdədir. Amma Azərbaycanın Ankara-İrəvan əlaqələrinin tam yaxşılaşmasına əngəl olması iddiaları kökündən yanlışdır", - deyə Q.Hüseynli belə şərh edib.

Professor bunun belə olmadığını izah edib: "Əvvəla, Ermənistanın Müstəqillik aktında Türkiyənin 6 vilayətinə ərazi iddiası yer alır. Doğrudur, son olaraq Ağrı dağını gerbdən çıxardılar, amma ərazi iddiaları qalır. Ona görə Ermənistan qanunvericiliyə dəyişiklik edəndə təkcə Azərbaycana deyil, Türkiyəyə qarşı ərazi iddialarını da oradan qaldırmalıdır. Ankaranın digər tələbi isə Zəngəzur dəhlizi ilə bağlıdır. Bu koridor açılmadığı halda "Marqara" keçid məntəqəsi də işə düşməyəcək. O nöqteyi-nəzərdən Mirzəyanın normallaşmaya maneə kimi Azərbaycanı göstərmək istəməsi uğursuz yanaşmadır. Fakt budur ki, Türkiyənin öz tələbləri və gözləntiləri var".

Q.Hüseynlinin sözlərinə görə, yeni Azərbaycan qardaş ölkə qarşısında şərt və ya diktə şəklində tələb qoymayıb ki, Ermənistanla quru sərhədləri açmasın: "Əksinə, hazırkı sülh dönəmində Türkiyə bu addımı atsa belə, Azərbaycan etiraz etməyəcək. Çünki Prezident Qazaxıstanda elan etdi ki, Ermənistana qoyulan tranzit embarqosu aradan qaldırılıb. Bu gün Azərbaycan üzərindən Rusiya və Qazaxıstan taxılı Ermənistana daşınır. Bu mənada, Türkiyənin quru sərhədlər bağlı atacağı addıma Azərbaycanın hər hansı protesti olmayacaq. Sadəcə, regiondakı proseslər, Zəngəzur dəhlizi və ərazi iddiaları məsələsi həllini tapmalıdır. Türkiyənin Ermənistandan ayrıca gözləntiləri var. Odur ki, problem və əngəl yaradan tərəf İrəvandır. Ermənistan dəhlizin tikintisi üçün addım atmayıb, konstitusiyaya düzəliş etməyib, hələ bir Azərbaycanı ittiham edir. Paşinyan hakimiyyəti tələsməlidir ki, bu problemləri yoluna qoyaraq Rusiyanın təsirlərini azaltsın, Türkiyə vasitəsi ilə Avropaya çıxsın".



Siyasi şərhçi Alim Nəsirov isə hesab edir ki, Mirzəyan bununla Bakı və Ankaranı üz-üzə qoya biləcəyini hesablayıb: "Lakin onun yanlış məntiqi İrəvanın öz işinə xələl gətirir. Ermənistan ərazi iddialarına son qoymasa, qanunvericilik aktlarından onu çıxarmasa münasibətlərin tamamilə normallaşması real deyil. Bakı İrəvana sonuncu "ev tapşırığı" verib və bunu tezliklə yerinə yetirməlidir. Amma Paşinyan 2026-ci il parlament seçkilərindən sonra referenduma getməyi planlaşdırıb. O deməkdir ki, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları ən azı 2027-ci ilədək Ermənistan konstitusiyasında qüvvədə olacaq. Belə olan halda, Mirzəyan hansı haqla günahı Azərbaycanda görür?"

A.Nəsirovun fikrincə, Ermənistan Türkiyə ilə sərhədlərin açılmasından böyük fayda götürəcək: "Bu, onun iqtisadi cəhətdən Rusiyadan asılılığını azaldacaq. Eyni zamanda, avrointeqrasiya yolunu sürətləndirəcək. Ermənistan bazarlarını türklər götürəcək, inşaat sektorundan tutmuş tekstil sahəsinə qədər ciddi təsiri olacaq. Bu fürsəti dəyərləndirmək istəyən tərəf addımlarını sürətləndirməlidir. Sadəcə, Mirzəyan daxili auditoriyaya hesablanmış bəyanatlar verir".

Ekspertin sözlərinə görə, rəsmi İrəvan Ermənistan-Türkiyə münasibətlərini, Ermənistan-Azərbaycan münasibətlərindən ayrı tutur: "Hər halda, ermənilərin baş diplomatının dediklərindən gələnən nəticə bunu deməyə əsas verir. Çünki Mirzəyan Ermənistanın Türkiyə ilə münasibətlərinin normallaşmasının İrəvanın Bakı ilə əlaqələrində də müsbət dinamika yarada biləcəyi qənaətinə gəlir. Əslində, buna qənaət demək bir o qədər yerinə düşmür. Erməni nazir müəyyən mənada, şərt dili ilə danışır. Təxminən belə: Ankara Ermənistanın Azərbaycanla münasibətlərini yaxşılaşdırmaq və sülh quruculuğuna töhfə vermək istəyirsə, İrəvanla normallaşma prosesinə getməlidir. Halbuki, Hakan Fidan məsələni fərqli qoymuşdu. Türkiyəli nazir, faktiki olaraq, bildirmişdi ki, Ermənistan üçün Türkiyə iqtisadi planda vacibdir və bu vacibliyin dividend qazandırması istəyənlər İrəvanın Bakı ilə sülhə gəlməsinə çalışmalıdırlar".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Türkiyənin sabiq baş naziri Naxçıvanı İraq Kürdüstanı ilə müqayisə etdi

## Davutoğluna Bakıdan etiraz



**Türkiyənin keçmiş baş naziri, "Gələcək" Partiyasının sədri Əhməd Davutoğlu türkiyəli jurnalistlərə verdiyi müsahibəsində Azərbaycanın ərazi bütövlüyünə və siyasi quruluşuna yönəlik fikirlər söyləyib.**

Belə ki, sabiq baş nazir, İraq Kürdüstan Regionunun bayraqlarının olmasını və bu bayraqların Türkiyədə rəsmi görüşlərdə qoyulmasını tənqid edənlərə cavab olaraq bildirib ki, Azərbaycanın Naxçıvan bölgəsinin öz bayrağı var və o, baş nazir olanda Naxçıvanın baş nazirini çağırıb, o da gəlib görüşüb və bu, rəsmi Bakını heç narahat etməyib.

Əvvəla bu cür müqayisə və paralellik aparmaq nə dərəcədə düzgündür? İkincisi, Naxçıvanın özünün ayrıca bayrağı varmı ki, Əhməd Davutoğlu o cür açıqlama verib?

Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, Əhməd Davutoğlunun Naxçıvan Muxtar Respublikasını İraq Kürdüstan regionu ilə müqayisə etməsi, paralellik aparması yanlışdır. İraq Kürdüstanı regionu formal olaraq İraqın ərazisi hesab olunur. Reallıqda isə özünü müstəqil dövlət kimi aparır, özünə müstəqil dövlətlərdə olduğu kimi atributlar qəbul edib. Məsələn, özünün bayrağı var. Naxçıvan Muxtar Respublikasının ayrıca bayrağı yoxdur. Azərbaycan Konstitusiyası digər regionlarımızda tətbiq olunduğu kimi Naxçıvanda da eyni cür tətbiq olunur. Azərbaycan bayrağından fərqli bir Naxçıvan bayrağı ola bilməz. Əhməd Davutoğlu hansı ayrıca bayraqdan danışır, maraqlıdır. Azərbaycan Respublikasının sahib olduğu bütün dövlət simvolları Naxçıvan Muxtar Respublikasına da aiddir. Hazırda Azərbaycan bayrağı olaraq istifadə edilən üçrəngli bayraq sovet dövrünün sonlarında ilk dəfə 1988-ci ildə Naxçıvanda istifadə edilməyə başlanıb və 1990-cı illərin əvvəlindən rəsmi bayraq olaraq qəbul edilmişdir. Yəni nə əvvəl, nə də Əhməd Davutoğlunun Türkiyə baş naziri olduğu dövrdə Naxçıvanın başqa bayrağı olmayıb".

Siyasi ekspert Aqil Məmmədov isə bildirdi ki, Türkiyənin keçmiş baş naziri Davutoğlu həmin ifadəsi ilə əslində Azərbaycanın ərazi bütövlüyünə və siyasi quruluşuna hörmətsizlik edib: "Əhməd Davutoğlunun bu açıqlamalarında iki məqam var. Birincisi, onun Naxçıvanın idarə olunması və proseslər barədə məlumatlı olmadığını göstərir. Naxçıvan ana yurddan tarixi ədalətsizliklər nəticəsində ayrı düşüb. Heç bir zaman Naxçıvan və naxçıvanlılar ana yurddan ayrı siyasət yürütmək, mərkəzdən uzaqlaşmaq kimi niyyət və istəklərə sahib olmayıblar. Əksinə, 1990-ci ildə ilk dəfə üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağı Naxçıvan Ali Məclisində qaldırılıb və daha sonra bütün ölkə bu bayrağın kölgəsində birləşib".

Siyasi ekspert vurğuladı ki, bu gün bütün Azərbaycan ərazisində qururla bir bayraq dalğalanır: "Davutoğlunun "Naxçıvanın baş nazirini çağırması" barədə iddiası da mövcud faktlara uyğun deyil. Araşdırdım, internetdə Naxçıvan baş naziri təkbaşına xarici rəsmi və ya işgüzar səfər həyata keçirməyib. Bu, məsələnin bir tərəfidir. Digər tərəfi isə ondan ibarətdir ki, Naxçıvan daxil olmaqla Azərbaycanın heç bir regionunun, heç bir dövlət orqanının rəhbərini Bakı istisna olmaqla heç bir paytaxt çağıra bilməz. Müxtəlif tədbirlərə və mərasimlərə dəvət göndərmək olar, lakin həmin dəvətin qəbul edilməsi yalnız Bakının razılığı və icazəsi ilə mümkündür. Dəvət ayrı, çağırmaq ayrıdır. Çağırmaq bir əmr deməkdir və bunu Davutoğlu kimi zəngin təcrübəyə malik siyasi xadim bilir. Rəsmi Bakını deyil, başqa yerlərdən əmr almağa qalxanların sonunun necə olmasını hazırda Bakıda davam edən məhkəmə prosesi göstərir. Türkiyə kimi bir ölkənin xarici işlər naziri və baş naziri olmuş şəxs üçün bu açıqlama nə diplomatik protokola, nə də dövlət etik normalarına uyğundur. Ümid edək ki, Davutoğlu yanlış fikirə düzəliş edəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 212 (8822) 22 noyabr 2025

# Ən çox işsiz paytaxtdadır - Bakını "ən"lərdən necə xilas etmək olar?

**Azərbaycanda sosial, iqtisadi, mədəni həyat Bakı şəhərində cəmləşib desək, yəqin yalan olmayacaq. Ölkə iqtisadiyyatının 80 faizindən çoxunun yerləşdiyi, gəlirlərin 90 faizə yaxınını təmin edən paytaxt və onun yerləşdiyi Abşeron yarımadası hər sahədə öndədir.**

Bu il oktyabrın 1-nə olan vəziyyətə əsasən, Azərbaycanda qeydiyyatda olan işsiz şəxslərin sayı 231 188 nəfər olub. Dövlət Statistika Komitəsinin hesabatına görə, paytaxtda ümumilikdə 39 236 nəfər işsiz kimi qeydiyyata alınıb.

İşsizlərin sayına görə Bakıdan sonra ikinci yerdə Qarabağ iqtisadi rayonu gəlir. Burada 24 510 nəfər işsiz kimi qeydiyyatdadır. Ən çox işsiz Ağdam (6 936 nəfər), Bərdə (6754) nəfər və Füzuli (3 422 nəfər) rayonlarında qeydə alınıb.

Növbəti yerdə Mərkəzi Aran iqtisadi rayonu (21 155), daha sonra Qazax-Tovuz iqtisadi rayonu qərarlaşır (19 678). Qazax-Tovuz iqtisadi rayonu üzrə ən çox işsiz şəxs Şəmkir (6 632 nəfər), Tovuz (4 271 nəfər) rayonlarında müşahidə edilib.

Ən az işsizlik səviyyəsi isə Dağlıq Şirvan iqtisadi rayonunda qeydə alınıb. Burada qeydiyyatda olan işsizlərin ümumi sayı cəmi 7 520 nəfər təşkil edir ki, bu da ölkədə ən aşağı göstəricidir.

2025-ci il noyabr ayının 1-i vəziyyətinə isə Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 237,9 min nəfər olub ki, onların da 51,2 faizini qadınlar təşkil edib.

Rəsmi statistikaya əsasən 2025-ci ilin doqquz ayı ərzində ölkədə 77,7 min yeni iş yeri açılıb. Bu dövrdə yeni iş yerlərinin 91,4 faizi qeyri-dövlət sektorunda yaradılıb. Yeni açılmış iş yerlərinin 75,9 faizi Bakı şəhərinin, 0,8 faizi Naxçıvan Muxtar Respublikasının, 23,3 faizi digər regionların, o cümlədən 7,2 faizi Abşeron-Xızı, 2,7 faizi Quba-Xaçmaz, 2,7 faizi Şəki-Zaqatala, 2,4 faizi Qarabağ, 1,9 faizi Gəncə-Daşkəsən, 1,5 faizi Şirvan-Salyan, 1,2 faizi Lənkəran-Astara, 0,9 faizi Şərqi Zəngəzur, 0,9 faizi Mərkəzi Aran, 0,8 faizi Qazax-Tovuz, 0,6 faizi Mil-Muğan və 0,5 faizi Dağlıq Şirvan iqtisadi rayonlarının payına düşüb.

Rəsmi statistika deyir ki, yeni açılmış iş yerlərinin 9,1 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 89,8 faizi mövcud müəssisə və təşkilatlarda, 0,4 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi isə digər tədbirlər üzrə yaradılıb.

Bununla yanaşı, 2025-ci ilin doqquz ayı ərzində ölkədə 8,2 min iş yeri bağlanıb.



Bu dövrdə bağlanmış iş yerlərinin 47,4 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin 27,3 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 72,7 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlar ilə əlaqədar bağlanıb.

Bakıda işsiz və yeni iş yerlərinin sayının digər regionlardan çox olmasının əsas səbəbi ölkə üzrə sahibkarlıq subyektlərinin də burada cəmləşməsidir. Rəsmi statistikaya əsasən, bu ilin yanvar-sentyabrında ölkədə fərdi sahibkarlar istisna olmaqla, 223 223 sahibkarlıq subyekti qeydiyyatda olub. Onların 148 932-si və yaxud 66,7 faizi Bakı şəhərində qeydiyyatda olub. Bu müddətdə ölkədə yaradılan 11 067 sahibkarlıq subyektinin 8 660-ü, yaxud 77 faizdən çoxu yenə Bakı şəhərində yaradılıb. Doqquz ayda Azərbaycanda ləğv olunan sahibkarlıq subyektlərinin sayı isə 549-a bərabər olub ki, bunun da 262-si, yaxud 47,7 faizi Bakının payıdır.

Abşeron-Xızı iqtisadi rayonunun göstəricilərini də əlavə etdikdə, ölkə üzrə sahibkarlıq subyektlərinin 70 faizdən çoxunun Bakıda yerləşdiyini görmək olar. Buna görə də işsizlərin Bakıda regionlardan daha çox olması təbiidir.

Azərbaycanda ən çox iş yeri ilə yanaşı, ən yüksək əmək haqqı, ən yüksək orta pensiya da Bakıdadır. Bakı şəhərində orta aylıq əmək haqqı 1400 manata yaxındır. Bu göstərici üzrə paytaxt yalnız Xankəndi şəhərinə uduzur - orada orta aylıq maaş 1500 manata yaxındır.

Bundan əlavə, rəsmi statistikaya əsasən bu il oktyabrın 1-i vəziyyətinə ölkə üzrə orta əmək pensiyası məbləği 540 manata bərabər olub. Bakı şəhərində bu göstərici 740 manat, ondan sonra gələn Naxçıvanda 506 manat təşkil edib. Qalan rayonlarda isə orta pensiya məbləği 410-460 manat aralığında dəyişib.

Ən çox iş yerinin, ən yüksək maaşların olması, sahibkarlıq subyektlərinin mühüm hissəsinin burada cəmləşməsi Bakı və Abşeronu banklar üçün regionlardan daha çox cəlb edir. Nəticədə bu iki region ölkə üzrə kreditlərin ən böyük payına malikdir. Azərbaycan Mərkəzi Bankının açıqladığı statistikaya əsasən bu il oktyabrın 1-nə Azərbaycan banklarının verdikləri 28,7 milyard manat kreditin 21,8 milyard manatı, yaxud 76 faizi təkcə Bakı şəhərinin payına düşür. Bura Xızı-Abşeron iqtisadi rayonuna verilən 1.2 milyard manatlıq krediti də əlavə etdikdə, daha yüksək göstərici əldə olunar.

Maraqlıdır ki, Bakıda kredit faizləri ölkə üzrə ən aşağıdır. Oktyabrın 1-nə ölkə üzrə orta kredit faizi 13,99 faizə bərabər olubsa, Bakıda bu, 12,63 faiz təşkil edib.

Bakının ölkənin sosial-iqtisadi həyatındakı rolunu müəyyən edən daha bir göstərici qoyulan investisiyaların paylanma vəziyyətidir. Yenə də rəsmi statistikanın verdiyi məlumata görə, bu ilin birinci yarısında əsas kapitala yönəldilmiş investisiyaların həcminə görə Bakı şəhəri mütləq liderliyini qoruyur. Paytaxta altı ay ərzində 4 milyard 73 milyon 780 min manat həcmində vəsait yönəldilib.

Bakıdan sonra siyahıda ən çox investisiya cəlb edən regionlar işğaldan azad edilmiş ərazilərdir. Bu, dövlətin həmin ərazilərdə apardığı irimiqyaslı bərpa və yenidənqurma işlərinin birbaşa nəticəsidir. İlk onluqda yer alan regionların əksəriyyəti məhz bu ərazilərdir:

* Kəlbəcər rayonu: 409 milyon 936 min manatla ikinci yerdədir.

* Laçın rayonu: 305 milyon 356 min manatla dördüncü yerdədir.

* Ağdam rayonu: 272 milyon 330 min manatla beşinci yerdədir.

* Zəngilan rayonu: 247 milyon 161 min manatla altıncı yerdədir.

* Şuşa rayonu: 229 milyon 52 min manatla yeddinci yerdədir.

* Cəbrayıl rayonu: 146 milyon 820 min manatla doqquzuncu yerdədir.

* Qubadlı rayonu: 108 milyon 160 min manatla onuncu yerdədir.

İnvestisiya həcmi 10-50 milyon manat arasında dəyişən rayonlar arasında Qəbələ (58 milyon 1 min), Lənkəran (38 milyon 780 min), Yevlax (36 milyon 294 min), Salyan (34 milyon 994 min) və Şəki (21 milyon 812 min) kimi şəhər və rayonlar var.

İnvestisiya həcmi 10 milyon manatdan aşağı olan rayonlar isə əsasən aqrar profilli və daha kiçik iqtisadiyyata malik ərazilərdir. Məsələn, Şəmkir (8 milyon 697 min), Masallı (7 milyon 865 min), Ağcabədi (6 milyon 388 min) və Qazax (4 milyon 286 min) bu qəbildəndir.

Siyahının sonunda yer alan Naftalan şəhəri (987 min), Qobustan rayonu (685 min) və Qax rayonu (567 min) isə 1 milyon manatdan daha az investisiya cəlb edə bilib (Fed.az).

Az qala bütün Azərbaycanın Bakının başına "fırlanması" uzun illərdir ki, ölkədə hər kəsi narahat edir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına 200 milyard manatdan yuxarı vəsait sərf etdiyini deyən hökuməti də, müstəqil ekspertləri də, sıravi rayon camaatını da.

Dəfələrlə sınaqdan çıxarılmış dünya təcrübəsinə əsasən ifrat urbanizazasiyanın qarşısını almağın yeganə yolu regionları insanlar üçün cəlbedici hala gətirməkdir. Bunun üçünsə bölgələr üçün investisiya şərtlərini asanlaşdırmaq, vergi, gömrük rejimini yumşaltmaq lazımdır.

Azərbaycanda hələlik bu sahədə ciddi irəliləyişlərə nail olunmayıb. Torpaqlarımızın işğaldan azad olunmasından sonra başladılan bərpa prosesi Qarabağ və Şərqi Zəngəzurda iqtisadi aktivliyə səbəb olub. Bu bölgələrdə fəaliyyət göstərən sahibkarlıq subyektləri 10 il müddətində əksər vergilərdən azad edilib, onlara sosial ödənişlərdə güzəştlər tanınıb. Gələn ildən bu qayda Naxçıvanda da tətbiq olunacaq.

Ölkə üzrə isə gələn ildən ƏDV qeydiyyat öhdəliyi yaradan dövriyyə məbləği 200 min manatdan 400 min manata çatdırılır. Hesab olunur ki, bu addım nağdsız dövriyyəni stimullaşdırır və kiçik biznes üçün vergi yükünü azaldır.

Bundan əlavə, ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən onların nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsinin 50 faizinin ƏDV tutulan ümumi dövriyyədən çıxılması, habelə sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən nağdsız dövriyyə üzrə vergi dərəcəsinin 8 faizdən 6 faizə endirilməsi də atılacaq addımlar siyahısındadır.

Eyni zamanda 2025-ci ildən etibarən dövlət-özəl tərəfdaşlıq layihələri çərçivəsində fəaliyyət göstərən özəl tərəfdaşlara və layihə şirkətlərinə gəlir, mənfəət, torpaq və əmlak vergiləri, həmçinin idxalda ƏDV və gömrük güzəştləri verilib. Gələn ildən isə layihənin üçüncü tərəfi hesab olunan dövlət-özəl tərəfdaşlığı müqaviləsi çərçivəsində özəl tərəfdaş və ya layihə şirkətinin tikinti işlərinə cəlb etdiyi podratçılara idxalda ƏDV və gömrük güzəştlərinin şamil edilməsi nəzərdə tutulur.

Bu addımların regionlara nə qədər cəlbedici edəcəyini yaxın illərdə qiymətləndirmək mümkün olacaq.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 212 (8822) 22 noyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Uşağın xatirinə boşanmamaq... - Seçim doğru, yoxsa?

## Sosioloq: "Azərbaycanda faktiki olaraq boşanma bumu yaşanır"

**Azərbaycanda ailədaxili münasibətlərin vəziyyətini göstərən son statistika həm zorakılıq halları, həm də boşanma prosesləri ilə bağlı ciddi tendensiyalara işarə edir. Belə ki, bu ilin ilk 9 ayında məişət zorakılığından zərər çəkmiş 68 nəfər, o cümlədən 45 uşaq sosial reabilitasiya xidmətlərinə cəlb olunub. Bu həm də ailə içində yaşanan gərginliyin, psixoloji təzyiqlərin və səssiz qalan zorakılıq formalarının artdığını göstərən mühüm siqnaldır.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, Sosial Xidmətlər Agentliyi tərəfindən zorakılığa məruz qalan şəxslərə sosial-psixoloji, tibbi-sosial və digər dəstək xidmətləri göstərilib. Bu xidmətlər zərərçəkmişlərin psixoloji sabitliyinin bərpasına, özünəinamın formalaşdırılmasına və gələcək həyatın sağlam şəkildə qurulmasına yönəlib. O da məlumdur ki, məişət zorakılığının böyük hissəsi yalnız fiziki təzyiqdən ibarət deyil. Daha təhlükəlisi və uzunmüddətli təsiri olan emosional zorakılıq, təhdid, şantaj, daimi alçaldılma, sözlü təhqir və iqtisadi asılılıq formalarıdır.

Ən çox zərər isə məhz bu mühitdə böyüyən uşaqlara dəyir. Ona görə də uşaq psixoloqları xəbərdarlıq edir: ailədə daimi qışqırıq, gərginlik və münaqişə, valideynlər arasında hörmətsizlik, susqun, amma ağır psixoloji atmosfer uşağın xarakterini, özünəinamını, gələcək münasibətlərini və emosional sabitliyini dərin şəkildə zədələyir.

Cəmiyyətdə geniş yayılmış düşüncə belədir ki, valideynlər uşağın xatirinə münasibəti davam etdirməlidir. Bəs "uşağa görə ayrılmırıq" fikri doğru seçim, yoxsa yanlış yanaşmadır?

Psixoloqlar qeyd edir ki, davamlı gərginlik və münaqişə içində böyüyən uşaqlar gələcəkdə daha çox aqressiyaya, depressiyaya, intihar düşüncələrinə, zorakılıq davranışına meyilli olurlar. Sakit şəkildə ayrılıb, amma uşağa birgə qayğı göstərən valideyn modeli, yəni mədəni şəkildə boşanmış, amma övladla bağlı əməkdaşlıq edən ailə forması uşağın psixoloji inkişafına daha sağlam təsir edir. Əlbəttə ki, bu, heç də boşanmanın təşviqi deyil. Sadəcə olaraq, zəhərli mühitdə ailəni süni şəkildə saxlamaq uşağın inkişafına sağlam ailə modelindən daha çox ziyan vurur.

Ədliyyə Nazirliyinin rayon və şəhər qeydiyyat şöbələrinin məlumatına görə, cari ilin yanvar-avqust aylarında 31 403 nikah, 13 869 boşanma qeydə alınıb. Beləliklə, nikahların payı əhalinin hər min nəfərinə 4,5-dən 4,6-ya yüksəlib. Boşanma göstəricisi isə 2,1-dən 2-yə düşüb. Bu, nikahların nisbətən artdığını, boşanma hallarının isə azaldığını göstərir. Bununla belə, boşanan ailələrin strukturuna nəzər saldıqda daha ciddi məqamlar üzə çıxır.

Statistika onu göstərir ki, artıq uşaqlı ailələrdə boşanma sayında azalma var. Ötən il 18 yaşadək uşağı olan ailələrdə qeydə alınan boşanmaların sayı 21 384, 2023-cü ildə isə 21 688 olub. Bu, cüzi də olsa, azalma deməkdir.

Ötənilki boşananların təsnifatı belədir: Uşağı olmayan ailələr 10 364, bir uşaqlı boşanmalar 4 368, iki və daha çox uşaqlı ailələrdə boşanma 6 652 sayda olub. Boşanmadan sonra valideynlərindən biri ilə qalan uşaqların ümumi sayı isə 19 632 olub. Hər 100 boşanmaya düşən uşaq sayı 178 olaraq qalıb.

Bu statistika, ailələrin uşaqların varlığına baxmayaraq, münasibətlərin davam etdirilməsinin həmişə mümkün olmadığını göstərir.

Ayrılmaq, yoxsa davam etmək? Hansı qərar daha doğrudur?

Mövzu ilə bağlı sosioloq Üzeyir Şəfiyev "Yeni Müsavat"a danışıb. Sosioloq qeyd edib ki, ölkədə boşanmaların sayının azalması fikri doğru deyil: "Son illərin statistikası göstərir ki, ölkədə boşanma dinamikası hələ də stabil şəkildə artma xətti ilə gedir. Cəmiyyətdə "boşanmalar azalır" kimi optimist fikir formalaşsa da, real mənzərə belə deyil. Azərbaycanda faktiki olaraq boşanma bumu yaşanır və bu prosesi durdura biləcək ciddi, sistemli addımlar hələlik müşahidə olunmur.

Boşanma göstəricilərinin aşağı düşməsinə səbəb ola biləcək hər hansı bir fundamental sosial-siyasi hadisə baş verməyib. Bu səbəbdən də trend aşağı yönlü deyil, əksinə, illər üzrə yuxarıya doğru hərəkət edir. Təxminən 30-40 il əvvəl Azərbaycanda uşağı olan ailələrdə boşanma çox nadir hal idi. Uşaq ailəni birləşdirən ən güclü psixoloji bağ sayılırdı. Cəmiyyətdə "uşaq ailənin sütunudur" düşüncəsi dominant idi və uşağın varlığı tərəflər arasında kompromisə gəlməyi, emosiyaları cilovlamağı, məsuliyyət hissini, ailəni qoruma instinktini gücləndirirdi.

Lakin müasir cəmiyyətdə vəziyyət kökündən dəyişib. Artıq valideynlər arasında daha çox eqosentrik düşüncə, "mən mərkəzli" davranışlar, şəxsi rahatlığı ailə dəyərlərindən üstün tutmaq tendensiyası müşahidə olunur. Nəticədə uşaq birləşdirici amil olmaqdan çıxır, ailə münasibətlərində tərəflərin öz emosional komfortunu prioritet edən yanaşmalar güclənir. Bu səbəbdən bu gün uşaqlı ailələr belə asanlıqla boşanma qərarı verir. Uşağın taleyi, onun böyüyəcəyi psixoloji atmosfer və gələcək həyatı çox zaman valideynin öz xoşbəxtlik konsepsiyasının kölgəsində qalır.

Son illərdə dəb halını almış fikir belədir: "Uşaq münaqişəli ailədə travma yaşayır, ona görə boşanma daha yaxşıdır".

Bu fikri ən çox məhz boşanmış insanlar dilə gətirir. Əlbəttə ki, sakitlik və psixoloji təhlükəsizlik uşağın inkişafı üçün vacibdir. Lakin burada ciddi bir nüans unudulur - əgər ailədə münaqişə varsa, onu ilk növbədə həll etmək lazımdır, dağıtmaq yox. Əvvəllər bu münaqişələrə ailə institutunun içindən ağsaqqallar, ağbirçəklər, yaxın qohumlar müdaxilə edir, tərəfləri barışdırır, ailəni qorumağa çalışırdılar. Bu gün isə boşluğu doldurmaq üçün müasir dövrdə yalnız bir yol qalır: əgər hökumət doğrudan da ailədaxili münaqişələrin azalmasını istəyirsə, bu proses sistemli şəkildə qurulmalıdır. Təhlükə altında olan ailələrin xüsusi reyestri olmalıdır. Bu ailələrlə sosial xidmətlər mütəmadi işləməlidir. Məqsəd boşanmanın qarşısını almaq, ailə mühitini sağlamlaşdırmaqdır. Gənc ailələr üçün psixoloji savadlılıq dərsləri, konflikt idarəetməsi, valideyn məsuliyyəti proqramları boşanmaların xeyli azalmasına səbəb olar".

Sosioloqun fikrincə, boşanma uşağı travmadan "qurtarmır" əksinə, travmanı daha da dərinləşdirir: "Boşanmış ailədə böyüyən uşaqların psixoloji çətinliklərlə üzləşməsi daha yüksək ehtimaldır. Yəni atanın və ya ananın itirilməsi hissi, iki ev arasında bölünmək, özünəinamın zəifləməsi, gələcək münasibətlərdə güvənsizlik. Hətta tədqiqatlar göstərir ki, boşanmış ailədən çıxan uşaqlar böyüdükdə boşanmış ailə qurmaq ehtimalı daha yüksək olur. Yəni boşanma çox zaman yeni nəsildə də təkrarlanan davranış modelinə çevrilir. Bu səbəbdən "uşaq travma yaşamasın deyə boşanmaq" düşüncəsi bəzən qısa müddətli rahatlığın uzunmüddətli psixoloji zərbəsi ilə əvəz olunur".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Özünə qəsd edən Nurcanın ölümündəki müəmma

## 16 yaşlı yeniyetmənin anası da illər əvvəl...

**Noyabrın 19-da "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sığınacağında 2009-cu il təvəllüdlü Nurcan Cəfərova həyatına qəsd edib. 16 yaşlı yeniyetmənin atasının ondan imtina etməsindən sonra belə fikrə düşdüyü bildirilir. Sosial Xidmətlər Agentliyinin də açıqlamasında atasının qızdan rəsmi qaydada imtina etdiyi açıqlanıb.**



Teleqraf-ın məlumatına görə, Azərbaycan qanunvericiliyində "övladdan imtina etmək" anlayışı yoxdur. Qanunvericilikdə valideynin övladdan imtina etməsi ilə bağlı hər hansı bir norma mövcud olmadığına görə, bunun proseduru da müəyyən edilməyib. Maraqlıdır ki, qanunvericilikdə belə bir anlayış yoxdursa, Agentlik rəsmi açıqlamasında atanın övladdan rəsmən imtina etməsini hansı qaydalara əsasən qeyd edib?

İnanmaq istərdik ki, aidiyyəti şəxslər Nurcana da məsələni rəsmi açıqlamadakı kimi çatdırmayıblar...

"Valideyn övladından rəsmi qaydada imtina etmir. Belə bir nəzəriyyə yoxdur. Sığınacağa verə bilər, saxlamaq istəməyə bilər, amma "övladımdan imtina edirəm" deyə bilməz. Mətbuatda verilən açıqlamada "imtina etdi" yazılması da düzgün ifadə deyil. Bizim cəmiyyətdə belə bir anlayış var ki, uşağı sığınacağa qoyursa, ondan imtina edir. Valideynin ərizəsi, yəqin ki, uşağın saxlanılmasına imkanı olmaması istiqamətində olub. Amma faciəyə səbəb kimi təkcə valideynin imtinası üzərində dayanmaq da doğru olmaz. Yəqin ki, hüquq-mühafizə orqanları digər istiqamətlər üzrə də araşdırmaları aparacaqlar" - vəkil İlqar Musayev Teleqraf-a bildirib.

Onu da bildirək ki, övladlıqdan rədd edilməsinə uyğun gələn anlayış Mülki Məcəllədə yer alan ləyaqətsiz vərəsəlik anlayışıdır. Qanunda nəzərdə tutulmuş şərtlər olduqda, valideyn sadəcə, pay varisini vərəsəlikdən məhrum edə bilər. Şəxsin ləyaqətsiz vərəsə elan olunmasına da yalnız məhkəmə qərar verə bilər.

Valideyn hüququndan məhrum edilməyə gəlincə, bu, uşaq üçün ciddi bir təhlükə yarandığı hallarda yenə məhkəmə qərarı qüvvəyə mindikdən sonra reallaşır.

Bu kimi hallara əsasən şiddət, zorakılıq, valideynin narkotik asılılığı və ya psixi pozğunluğu daxildir.

Qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin II bəndinə əsasən, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Qeyd edək ki, sığınacaqda özünü 4-cü mərtəbədən atan 16 yaşlı Nurcan Cəfərovanın anası da illər əvvəl intihar edibmiş.

Bu barədə məlumatı Teleqraf saytı məlumat yayıb. Bildirilib ki, 16 yaşlı Nurcan Cəfərovanın yaxınları sığınacağa yaxınlaşaraq ona aid əşyaları və pulu götürüblər. Pulu və əşyaları götürən şəxs isə Nurcanın ana babası olub.

Bu məbləğ isə 100 manat təşkil edib. Həmin pul Nurcanın anasının vəfat etməsinə görə aldığı aylıq müavinətdən geri qalan məbləğ olub. Məlumata görə, Nurcanın anası da o, 7 yaşında olarkən intihar edib. Bu barədə yeniyetmə sığınacaqda olduğu müddətdə məlumat verib.

Həmçinin qeyd edək ki, Nurcan hadisənin baş verdiyi gün qrip olub. Bu səbəbdən o, dişlərinin müalicəsi üçün həkimə yollanmayıb, şənbə günü gedəcəyini bildirib. Bundan yarım saat sonra isə həyatına qəsd edib.

YENİ MÜSAVAT
N 212 (8822) 22 noyabr 2025

# Kreditlə yaşayan, oxuyan tələbələr - fondun faydası varmı?

**Tələbələr təhsil kreditlərindən ölkənin bütün iqtisadi rayonları üzrə yararlanırlar. Ümumi göstəricilərə əsasən, ən çox kreditdən yararlanma Bakı iqtisadi rayonu üzrə qeydə alınıb.**

Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq Təhsil Tələbə Kredit Fondundan məlumat verilib.

Bildirilib ki, bu iqtisadi rayon üzrə indiyədək 16 mindən çox tələbə krediti müqaviləsi rəsmiləşdirilib. Fonddan verilən məlumata görə, bölgələr üzrə təhlil göstərir ki, Bakıdan sonra ən yüksək yararlanma göstəricisi Lənkəran-Astara iqtisadi rayonu üzrədir.

"Bu iqtisadi rayondan olan tələbələr tərəfindən 8 minə yaxın kredit müqaviləsi rəsmiləşdirilib. Növbəti ən yüksək göstəricilər isə Gəncə-Daşkəsən və Mərkəzi Aran iqtisadi rayonlarına məxsusdur. Hər iki iqtisadi rayonda 5 mindən çox təhsil kreditinin rəsmiləşdiyi müşahidə olunur",- məlumatda deyilir.

Qeyd edək ki, bu müddət ərzində sözügedən fonda məxsus elektron portala 84 mindən çox müraciət daxil olub, onlardan 68 mindən çoxu üzrə təhsil tələbə krediti müqaviləsinin rəsmiləşdirilməsi həyata keçirilib.

Lakin Təhsil Tələbə Krediti Fondu (TTKF) haqqında Hesablama Palatasının 2025-ci ilin I rübü üzrə apardığı səmərəlilik auditinin nəticələri ali təhsilin maliyyələşdirilməsi sahəsində ciddi sistem problemlərinin və idarəetmə çatışmazlıqlarının olduğunu bir daha təsdiqləyir. Audit nəticələri təkcə texniki və hüquqi uyğunsuzluqları deyil, həm də dövlət vəsaitlərinin təyinatı üzrə xərclənməməsi, məqsədli sosial siyasətin həyata keçirilməməsi və gələcəkdə təkrar olunacaq maliyyə riskləri ilə bağlı ciddi xəbərdarlıqdır. Bundan əlavə, auditin aşkarladığı 32 tələbənin normadan aşağı nəticə ilə standart kredit alması, vəsaitlərin qanunsuz istifadəsi və hüquqi aktların pozulması deməkdir.

Amma bu kreditlərin gələcəkdə geri qaytarılmasına dair risklərin nəzərə alınmaması, kredit siyasətinin iqtisadi dayanıqlığını sual altına alır.

Bəs təhsil eksperti necə düşünür, bu fondun fəaliyyəti faydalıdırmı? Tələbələrə kredit ayrılmasında şəffaflıq təmin olunurmu? Ümumiyyətlə, tələbələrin krediti qaytarmamaq riskləri nə dərəcədədir?

Mövzu ilə bağlı təhsil ekpserti Kamran Əsədov "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, "Təhsil tələbə krediti haqqında" qanunun 5-ci maddəsində kreditlərin verilmə şərtlərinin bərabər imkanlara əsaslanması, qərarların elektron sistem üzərindən verilməsi və sosial vəziyyətə dair meyarların açıq şəkildə müəyyən edilməsi şəffaflıq və ədalət üçün hüquqi baza yaradır. Qanunun 7-ci maddəsində göstərilən "güzəştli kredit modeli" isə aztəminatlı ailələrdən olan tələbələrin təhsilə çıxışını təmin edən ən mühüm mexanizmdir və bu, beynəlxalq təcrübədə yalnız inkişaf etmiş ölkələrin tətbiq etdiyi sosial yönümlü modelə yaxındır. Şəffaflıq baxımından üstünlük ondadır ki, qərarlar insan müdaxiləsi olmadan elektron alqoritm tərəfindən verilir və bütün göstəricilər illik hesabatlarda ictimaiyyətə açıqlanır.



Statistik müqayisələr dünya təcrübəsi ilə paralel aparıldıqda Azərbaycanın vəziyyətinin bir sıra məqamlarda daha dayanıqlı olduğu görünür. OECD ölkələrində ali təhsil kreditlərindən yararlanma səviyyəsi ölkə üzrə tələbələrin 40-70%-i arasında dəyişir, lakin geri qaytarılmama riski yüksəkdir: ABŞ-da "default rate" uzun illər 10-12%, İngiltərədə gəlirə bağlı mexanizm olmasına baxmayaraq 8% ətrafında olub. Gürcüstanda tələbə kreditlərinin qaytarılmama riski 18%-ə qədər yüksəlib. Azərbaycan isə bu sahədə yeni sistem qurmasına baxmayaraq daha sabit göstərici nümayiş etdirir: güzəştli kredit alan tələbələrin 83-85%-i məhz sosial həssas kateqoriyanı təşkil etdiyi üçün dövlət tərəfindən ödənişlərin bir hissəsinin kompensasiya edilməsi portfel riskini aşağı salır. Bu model dünya ölkələrinə nisbətən daha az riskli və sosial yönümlü mexanizm kimi görünür".

K.Əsədovun sözlərinə görə, müsbət tərəflərin ən önəmlisi odur ki, Elm və Təhsil Nazirliyinin son illər təhsilin maliyyə əlçatanlığı sahəsində tətbiq etdiyi bu model ali təhsilin kütləviləşməsinə yeni imkanlar yaradıb. "2022-2024-cü illər arasında kredit alan tələbələrin sayında 2,3 dəfə artım qeydə alınıb. Bu, dünya ölkələri ilə müqayisədə çox yüksək dinamika hesab olunur; məsələn, Türkiyədə son üç ildə artım cəmi 11%, Gürcüstanda isə 8% olub. Bundan əlavə, kreditlərin geri ödənişinin məzunların gəlir səviyyəsinə uyğunlaşdırılması istiqamətində hazırlanan mexanizmlər, əslində, Avstraliya modelinin lokal adaptasiyasıdır və bu, kredit sisteminin uzunmüddətli dayanıqlığını artıracaq", - təhsil eksperti bildirib.

Kamran Əsədovun fikrincə, mənfi tərəf isə odur ki, sistem genişləndikcə risk idarəçiliyinin gücləndirilməsi zərurəti daha aydın görünür: "Xüsusilə də, ixtisas seçimi əmək bazarının tələblərinə uyğun olmayan tələbələr üçün gələcəkdə kreditlərin qaytarılması çətinləşə bilər. Bu risk bütün dünyada mövcuddur və təkcə Azərbaycana aid deyil. ABŞ-də humanitar ixtisaslar üzrə təhsil alanların kredit qaytarma riski STEM ixtisaslarına nisbətən 2,1 dəfə çoxdur. Azərbaycanda isə son iki ildə STEM üzrə kredit alan tələbələrin payının artması risklərin ümumi portfel üzrə azaldılmasına müsbət təsir göstərir.

Dünya təcrübəsi ilə müqayisə göstərir ki, Azərbaycan modeli daha sosial yönümlü və risk baxımından daha dayanıqlıdır. ABŞ və İngiltərədə tələbə kreditlərinin ümumi portfeli büdcələrə ciddi yük yaradır, halbuki Azərbaycanda kreditlərin böyük hissəsinin sosial təbəqələrə yönəldilməsi və dövlət təminatı sistemin maliyyə sabitliyini qoruyur. Geri qaytarılmama riski inkişaf etmiş ölkələrdə 10%-dən yuxarı qalxdığı halda, Azərbaycan hələlik bu həddə çatmır və mexanizmlər düzgün tətbiq olunarsa, risklərin 5-6% səviyyəsində saxlanılması real görünür".

Xalidə GƏRAY,
"Yeni Müsavat"

# Müəllimlərin maaş artımı...

## "Təklif edilən fikirlər", "təhrif edilən fikirlər"



**"Müzakirə mədəniyyəti hər bir işin təkmilləşməsində mühüm rol oynayır. İstənilən iş müzakirə edilərsə, daha təkmil olar. Çünki atalarımızın dediyi kimi, ağıl ağıldan üstündür".**

APA xəbər verir ki, bu fikirləri elm və təshil naziri Emin Əmrullayev sosial hesabında paylaşıb.

"Xüsusilə ictimai maraq və əhəmiyyət kəsb edən məsələlərin ictimai müzakirəsi Elm və Təhsil Nazirliyi olaraq hər zaman dəstəklədiyimiz bir yanaşmadır. Amma təəssüf ki, hələ də bu sahədəki xoş niyyətimiz arzuedilən nəticələr vermir.

Son günlər geniş müzakirələrə səbəb olan təklif edilmiş islahatın əsas mahiyyəti ondan ibarətdir ki, 2027-ci ildən başlayaraq 2030-cu ilədək mərhələli şəkildə müəllimlərin maaşı saathesabı əsasda hesablanmaqla yanaşı, yüksək nəticə göstərmiş müəllimlərə könüllü əsasda ölkə üzrə orta əməkhaqqından 2 dəfə çox əməkhaqqı təklif edilməklə həftədə 30-36 saatlıq tamştat əsasında da əməkhaqqı hesablansın.

Müzakirələr zamanı əsas problem kimi 3 məqamı xüsusi vurğulamaq istərdim:

Əvvəla, ən təəccüb doğuran və məntiqsiz görünən məqam odur ki, təklif olunan fikirlər bir kənarda qalır, cəmiyyət isə məsələyə heç bir aidiyyəti olmayan (və ya mövzudan xəbərsiz) şəxslərin uydurduğu və ya təhrif etdiyi fikirləri müzakirə etməyə başlayır. Məsələn, "müəllimlərin əməkhaqqı sistemi saathesabı sistemdən tamştatlı sistemə keçmədir" fikri "müəllimlər axşam saat 6-ya qədər işdə qalacaqlar" fikri kimi təhrif olunur və bütün müzakirələr bu təhrif edilmiş (və bayağı) fikir əsasında aparılır. Buna görə də xahiş edirik ki, təklif nədirsə, onu müzakirə edək, təhrif edilmiş fikirlər Elm və Təhsil Nazirliyinə aid olmadığı üçün müzakirə etməyək.

İkinci məsələ isə müzakirələr zamanı əsas fikri detallardan ayıra bilməməkdir. Əsas fikir yuxarıda qeyd edilib. Əgər bu yaxşı fikirdirsə və məqbul hesab edilirsə, detalları sonra da müzakirə etmək olar. Məsələn, "bu islahatı etmək üçün infrastruktur yoxdur" və ya "uzaq məsafədən müəllim necə işə gəlib-gedəcək" kimi məqamlar əsas fikir yox, detaldır. Əgər əsas fikir bəyənilirsə, bu halda detalları da müzakirə etmək olar. Yox, əgər əsas fikir səhvdirsə, onda detalları müzakirə etmək mənasızdır.

Digər məqam isə hörmətli media nümayəndələrimizin təqdim edilən məlumatların içərisindən detalları ayırıb neqativ xəbər kimi verməsi həvəsidir. Dünən İctimai Televiziyada bu islahat haqqında ətraflı məlumat verdik. 1 saata yaxın təqdimat yerli media orqanlarının birində "210 manat maaş alan müəllimlərin sayı AÇIQLANDI" başlığı ilə təqdim edildi. Halbuki bu verilişdə həm də 1589 manat alan müəllimlərin sayı açıqlanmışdı və bu say 210 manat maaş alan müəllimlərin sayından ən azı 4 dəfə çoxdur. Hörmətli media mənsublarımız hər hansı səbəbdən bu fərqi ya görmədilər, ya da görsələr də paylaşmaq istəmədilər. Bu, sadəcə bir misaldır, bu cür neqativə köklənmiş davranışın arxasında hansı sosial-psixoloji səbəblərin dayandığını isə yəqin ki, sahə mütəxəssisləri araşdırmalıdırlar.

Bu məqamlara toxunmağı vacib bildim, təbii ki, ictimai müzakirə aparmaq özü bir bacarıq tələb edir. Zamanla inanıram ki, bu istiqamətdə də müsbət irəliləyiş olacaq. Əsas odur ki, nikbin olmaq lazımdır - bu gün təhsil sistemində mənfidən daha çox müsbət proseslər baş verir", - nazir qeyd edib.

**2008-ci ildə o zaman nəqliyyat naziri olan Ziya Məmmədov Koreyanın SK C&C şirkəti ilə danışıqlara çıxaraq Azərbaycana "hazır intellektual nəqliyyat sistemi" gətirilməsi üçün fantastik məbləğə - 100 milyon dollara müqavilə imzalayıb. 2011-ci ildə sistem istifadəyə verilsə də, ilk gündən işləməyib. Daha sonra məlum olub ki, nəzarət tam şəkildə şirkətin əlindədir, proqram təminatının ilkin kodları Azərbaycana verilməyib, hər yeniləmə üçün əlavə milyonlar tələb olunur. Hökumət yeni ödənişlərdən imtina etdikcə sistem çöküb, iflasa uğrayıb, şəhərin hər nöqtəsinə quraşdırılan kameralar və monitorlar ya sıradan çıxıb, ya da tamamilə funksiyasız qalıb.**

# Ziya Məmmədovla bağlı 100 milyonluq korrupsiya qalmaqalı

## Keçmiş nazir Bakını tıxaca salıb






Azərbaycanın gündəlik tıxac problemi, milyonların havaya sovrulması və işləməyən Nəqliyyat Mərkəzi - bütün bunların mərkəzində cinayətə bərabər qərar dayanır.

Bu gün Ziya Məmmədovun həmin 100 milyonluq layihəsindən qalan tək miras dayanacaqlardakı sınıq monitorlar, çürümüş avadanlıqlar və dövlət büdcəsinin geri dönməyən yüküdür. Nə qərarın arxasında duran Ziya Məmmədovdan, nə də o dövrdə prosesə cavabdeh şəxslərdən indiyə qədər hər hansı hesabat tələb olunmayıb. Bu, tək bir layihənin uğursuzluğu deyil, dövlət idarəçiliyində yanlış qərarın bütün bir şəhərin gündəlik həyatına necə təsir etdiyinin canlı nümunəsidir.

Bu faktı ictimailəşdirən İKT üzrə ekspert Osman Gündüzün sözlərinə görə, belə nümunələrin sayı çoxdur və hər biri eyni həqiqəti göstərir: "Dövlət idarəçiliyində verilən bir düzgün və ya səhv qərar təkcə texniki nəticə yaratmır, bir ölkənin gündəlik həyatına, təhlükəsizliyinə və büdcəsinə həlledici təsir edir. Cloudflare böhranı bir daha sübut etdi ki, milli təhlükəsizliyi düşünənlər ölkəni böhrandan qoruyurlar. 2008-2011-ci illərin "intellektual nəqliyyat sistemi" isə göstərdi ki, yanlış qərar milyonları əridib aparmaqla yanaşı, illərlə bütün şəhəri tıxaca salacaq sistemsizliyə çevrilir. Bu gün verilən qərarlar sabah dövlətin ayaqda qalmasını müəyyən edir.

Burada əsas sual ortaya çıxır - əgər Azərbaycanın Nəqliyyatın İdarəetmə Sistemi bərbad vəziyyətdə olmasaydı, vəziyyət necə olardı? Yollarda tıxaclar yenə də bugünkü kimi qalardımı?

Tanınmış vəkil Cavad Cavadov "Yeni Müsavat"a deyib ki, tıxac probleminin əsas səbəbi yalnız avtomobillərin çoxluğu deyil, ondan da çox şəhərin nəqliyyat axınının koordinasiyanın, siqnal sisteminin real zamanlı işləməməsi, qəzaların gec aşkarlanması, dayanma və keçid yerlərinin statistik analiz əsasında idarə edilməməsidir.

"Smart-sity sistemi tətbiq olunan şəhərlərdə vəziyyət müsbətə doğru dəyişir. Azərbaycanda isə smart-sity sistemi 2011-ci ildən var, amma işlək deyil. Əgər 2011-ci ildən etibarən həqiqi işlək intellektual nəqliyyat sistemi qurulsaydı, o zaman tıxacların miqyası ən azı 25-40 faiz azalardı. Qəza və ölüm hallarının sayı 10-20 faiz aşağı düşərdi.İşə gecikmələr, yanacaq sərfiyyatı və şəhər içi logistikanın gecikməsi nəticəsində iqtisadi itkilər yüz milyonlarla manat azalardı. Şəhər planlaması dataya əsaslanar, yol şəbəkəsi subyektiv yox, real göstəricilərlə idarə olunardı. Bakı bu gün regionda smart-city nümunəsinə çevrilə bilərdi. Bu gün isə həmin dövrün yanlış qərarının fəsadları hələ də davam edir: tıxaclar saatlarla çəkir, kameraların yarısı işləmir, yol hərəkəti qaydalarının idarə olunması mexaniki və köhnə üsullarla aparılır, şəhərin nəqliyyat sistemi isə real vaxtlı koordinasiyadan məhrumdur. Bir sözlə, əgər Nəqliyyat Nazirliyinin 100 milyon dollarlıq layihəsi kağız üzərində yox, real həyatda işləyən sistem olsaydı, Bakının yol arteriyaları bu gün olduğu kimi boğulmaz, gündəlik həyat bu qədər ləngiməz, iqtisadiyyat hər gün yüz minlərlə manat itirməzdi. Şəhərin tıxac problemi bu qədər ağırlaşmazdı. Tıxacların mərkəzində yalnız avtomobil sayı deyil, vaxtında verilməmiş doğru qərarlar dayanır", - vəkil deyib.

Bəs Ziya Məmmədov bu layihəyə görə cavabdehdirmi və əgər cavabdehdisə, hansı cəza verilə bilər?

Cavad Cavadov deyir ki, Azərbaycan qanunvericiliyi bu kimi hallarda çox aydındır: "Əgər dövlət vəsaiti qeyri-səmərəli xərclənibsə, müqavilədə korrupsiya riski mövcuddursa, layihənin bilərəkdən qeyri-şəffaf şərtlərlə bağlanması nəticəsində dövlət külli miqdarda ziyana düşübsə, məmurun məsuliyyəti həm siyasi, həm də cinayət müstəvisində yaranır. Bu kimi əməllərdə Cinayət Məcəlləsinin 308-ci - vəzifə səlahiyyətlərindən sui-istifadə; 179-cu - mənimsəmə və israfetmə; 314-cü - səhlənkarlıq maddələrinin və büdcə vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsinə dair digər maddələrrin tərkib hissələri var. Bu maddələrdən hər hansı biri sübuta yetirilsə, Ziya Məmmədova qarşı 3 ildən 12 ilədək həbs cəzası, dövlətə vurulan ziyanın ödənilməsi, əmlak müsadirəsi və gələcəkdə vəzifə tutmaq hüququndan məhrumetmə kimi sanksiyalar tətbiq oluna bilər. Dünyanın istənilən ölkəsində 100 milyon dollarlıq dövlət layihəsinin tamamilə çökməsi dərhal istintaqa səbəb olur. Azərbaycanda isə bu günə qədər nə siyasi hesabat verilib, nə də hüquqi araşdırma aparılıb. Əslində məsələ təkcə Ziya Məmmədovun şəxsi məsuliyyəti ilə məhdudlaşmır. Ortada verilmiş yanlış qərar var. Hansı ki, həm büdcə vəsaitini məhv edib, həm də şəhərin strateji sistemini illərlə iflic vəziyyətinə salıb. Nəticə isə bütün vətəndaşların mənafeyinə toxunur, yollarda sərf olunan saatlar, itirilən yanacaq, tıxacda qalan ambulanslar, gecikmiş iş və təhsil qrafikləri, iqtisadi itkilər və dövlətin səmərəliliyi barədə mənfi təsəvvür formalaşıb. Bugünkü reallıq ondan ibarətdir ki, əgər həmin intellektual nəqliyyat sistemi işlək vəziyyətə gətirilsəydi, Bakı bu gün regionun ən səmərəli nəqliyyat idarəetmə modelinə sahib ola bilərdi. Lakin yanlış qərar təkcə o dövrün büdcəsini yox, illərlə davam edən tıxac problemini də formalaşdırdı. Ziya Məmmədov bu layihəyə görə cinayət məsuliyyəti daşıyır. Hüquq mühafizə orqanları gec də olsa, hərəkətə keçməli, Ziya Məmmədovu istintaqa cəlb edib ən azı dövlət büdcəsinə vurulmuş ziyanı tələb etməlidirlər. 100 milyon manat bu gün Azərbaycan büdcəsi üçün az məbləğ deyil. Həmin pulla Qarabağda böyük işlər görmək olar".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

# Avtomobil nömrələrində yenilik - Defisin önəmi




**Yeni qəbul edilmiş dövlət standartına əsasən, bundan sonra nəqliyyat vasitələrinə veriləcək dövlət qeydiyyat nişanlarında rəqəm və hərflər arasında istifadə olunan defis işarəsi tətbiq olunmayacaq. Bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) şöbə rəisi Rövşən Tağıyev bildirib. Onun sözlərinə görə, bu dəyişiklik yalnız yeni hazırlanan nömrə nişanlarına aiddir. Hazırda vətəndaşların istifadə etdiyi, üzərində defis olan bütün dövlət qeydiyyat nişanları tam etibarlıdır, onların dəyişdirilməsinə və yenisi ilə əvəz olunmasına heç bir ehtiyac yoxdur: "Mövcud nömrələr qüvvədə qalır, vətəndaşlardan əlavə müraciət və ya nömrə dəyişikliyi tələb olunmur.Yeni standart sadəcə bundan sonra hazırlanacaq nömrə nişanlarının dizaynına şamil edilir və köhnə nömrələrin hüquqi statusuna təsir göstərmir".**

**Defisin silinməsi hansı zərurətdən doğub?**

Nəqliyyat eksperti Elməddin Muradlı "Yeni Müsavat"a deyib ki, yeni dövlət standartına əsasən avtomobil nömrələrində rəqəm və hərflər arasındakı defisin aradan qaldırılması, görünüşdə kiçik bir dəyişiklik kimi görünə bilər, amma əslində bu həm texnoloji, həm də inzibati baxımdan vacib addımdır: "İndiyə qədər defis vasitəsilə nömrələrin oxunması müəyyən qədər asanlaşdırılsa da, müasir qeydiyyat sistemləri artıq belə vizual köməkliyə ehtiyac duymur. Kompüterlə oxunan və elektron məlumat bazasına inteqrasiya olunmuş sistemlər üçün rəqəm və hərf ardıcıllığının davamlılığı daha önəmlidir. Əsas vurğulamaq lazımdır ki, bu dəyişiklik yalnız yeni hazırlanacaq nömrələrə şamil edilir. Yəni vətəndaşların artıq istifadə etdiyi nömrələr, üzərində defis olsun və ya olmasın, tam hüquqi qüvvədə qalır. Onları dəyişdirmək, yenisi ilə əvəz etmək üçün əlavə müraciət etmək lazım deyil. Bu, həm vətəndaşlar üçün rahatlıq yaradır, həm də dövlət orqanlarının əlavə resurs xərclərini azaldır".

Elməddin Muradlı deyib ki, digər tərəfdən, vizual olaraq sadə nömrələr daha müasir və təmiz görünür: "Bu da ölkəmizin avtomobil standartlarının beynəlxalq tələblərə uyğunluğunu göstərir. Belə dəyişikliklər uzunmüddətli perspektivdə həm nəqliyyat infrastrukturunun optimallaşdırılmasına, həm də vətəndaşların gündəlik həyatının asanlaşdırılmasına xidmət edir. Müxtəsər desək, defisin ləğvi heç bir hüquqi və praktiki problemlər yaratmır. Bu, texniki təkmilləşdirmə və gələcək standartlaşdırma məsələsidir. Vətəndaşlar üçün əlavə öhdəlik və ya müraciət tələb olunmur, sadəcə avtomobil nömrələrinin görünüşü sadələşir və sistem daha müasir bir formaya keçmiş olur. Nəqliyyat sahəsində belə addımlar həm inzibati effektivliyi artırır, həm də vətəndaşların gündəlik həyatını sadələşdirir"

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 212 (8822) 22 noyabr 2025

# Azərbaycana milyardlar yatırılacaq - Qarabağ və Şərqi Zəngəzur "güzəştlər vadisi" nə çevrilir

## Azərbaycan iqtisadiyyatında investisiya cəlb edə biləcək 60-dan çox istiqamət var; ölkəmizə ən çox birbaşa investisiya yönəldən ölkə Birləşmiş Krallıq olub

**"Vaxtilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti indi öz bəhrəsini verməkdədir".**

Bunu Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli parlamentin bugünkü plenar iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

"Müzakirələr bir daha göstərdi ki, ilk növbədə 2026-cı il dövlət büdcəsi neftdən asılılığı azaldır. İkincisi regionların dövlət büdcəsindən asılılığı da tədricən azalır. Bu isə qarşıya qoyduğumuz məqsədlərə çatmağımız deməkdir", - deyə o bildirib.

Komitə sədri vurğulayıb ki, Azərbaycanda uzun illərdir hökm sürən ictimai-siyasi sabitlik və ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ölkəmizi xarici investorlar üçün daha da cəlbedici edib. "Növbəti illərdə milyardlarla manat vəsait Azərbaycana investisiya ediləcək", - deyə Ə.Hüseynli bildirib.

İqtisadçı Eldəniz Əmirov "Yeni Müsavat"a geniş şərhində bildirdi ki, Azərbaycan iqtisadiyyatına nə qədər investisiyanın cəlb edilməsi ilə bağlı konkret rəqəmlər açıqlanmasa da, iqtisadi nəzəriyyədə investisiyanı cəlb etmək potensialı adətən 3 parametrlə hesablanır: ÜDM; kapitalın yenilənməsi və gen işlənmə ehtiyacı; sektorların əlavə sərmayəni mənimsəmə etmə səviyyəsi. Onun sözlərinə görə, bu üç istiqamət üzrə dəqiq rəqəm söyləmək çətin olsa da, 50 milyard manatdan çox vəsaitdən söhbət gedə bilər: "Təbii ki, bu vəsaitin cəlb edilməsi üçün mütləq şəkildə qlobal investorların maraqlarını təmin edəcək mühit yaradılmalıdır. Təkcə, qlobal investorlar deyil, dövlət sərmayələri, o cümlədən yerli sahibkarların sərmayələri də mümkündür. Təbii ki, birbaşa xarici investisiyalar da mümkündür. Bir ildən çoxdur ki, Azərbaycan iqtisadiyyatına investisiya imkanları, xarici investorlar üçün iqtisadiyyatımızın cəlbedici tərəflərinə dair araşdırmalar aparıram. Hazırda üzərində işlədiyim kitabda bütün sahələr üzrə potensialın sistemləşdirilməsini edirəm. Analizlərim dərinləşdikcə görürəm ki, Azərbaycan iqtisadiyyatında investisiya cəlb edəcək biləcək 60-dan çox istiqamət var. Bunlardan bəzilərini ölkəmiz prioritet elan edib. Bəziləri ilə bağlı orta və aşağı indekslər üzrə gəlirlilik olsa da, faktiki olaraq, 60-dan çox istiqamətdə investisiya cəlb etmək üçün imkanlar mövcuddur: qeyri-neft və sənaye yönümlü sahələrimiz kifayət qədərdir - mədənçıxarma, emal sənayesi, kimya, tikinti materialları, tullantıların emalı, yüksək əlavə dəyər yaradan sənaye və digər alt sahələr, aqrar və aqrar emal sahələri - bitkiçilik, südçülük, innovativ kənd təsərrüfatı texnologiyaları, logistika ilə inteqrasiya olunmuş ərzaq dəyər zənciri formalaşdırmaq mümkündür, turizm sektoru özündə bir çox imkanlar daşıyır, rəqəmsal iqtisadiyyat və texnologiya istiqaməti-data mərkəzləri, bulud xidməti, süni intellekt, startap ekosisteminə dair investisiya potensialı, bərpaolunan enerji və s. Bu siyahını yetərincə uzada bilərik. İşğaldan azad edilən ərazilər isə investisiya cəlbediciliyi baxımından daha çox imkan vəd edir. Qarabağ və Şərqi Zəngəzurda yaradılan imkanlar bu əraziləri "güzəştlər vadisi" adlandırmağa imkan verir".



İqtisadçı Xalid Kərimli isə hesab edir ki, regionlar inkişaf etmiş olsa idi, ölkə iqtisadiyyatının 80 faizi Bakıdan asılı olmazdı: "Azərbaycanda adambaşına düşən qeyri-neft ixracı Ermənistan və Gürcüstandan aşağıdır. Ölkəmizdə ÜDM də, orta aylıq əməkhaqqı da qonşu dövlətlərdən daha aşağı səviyyədədir. Birbaşa xarici investisiyaların həcmində azalma var. Deməli olar ki, hər il əvvəlki ilə nəzərən azalma müşahidə olunur".

Qeyd edək ki, 2024-cü ildə Azərbaycanda əsas kapitala 21 milyard 435,1 milyon manat və yaxud 2023-cü illə müqayisədə 0,7 % az investisiya yönəldilib.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən ildə neft-qaz sektoruna investisiyalar 10,2 % azalıb, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyalar isə 3,3 % artıb.

Ötən il istifadə olunmuş investisiyaların 10 milyard 641,3 milyon manatı və yaxud 49,6 %-i məhsul istehsalı sahələrinə, 8 milyard 221,1 milyon manatı və yaxud 38,4 %-i xidmət sahələrinə, 2 milyard 572,7 milyon manatı və yaxud 12 %-i isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Hesabat dövründə əsas kapitala yönəldilmiş investisiyaların 18 milyard 145,7 milyon manatını və yaxud 84,7 %-ni daxili investisiyalar təşkil edib, 15 milyard 524,9 milyon manatı və yaxud 72,4 %-i bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Media Təhlil Mərkəzinin (MTM) Mərkəzi Bankın açıqladığı rəsmi rəqəmlər əsasında apardığı təhlil göstərir ki, son 5 ildə Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların həcmi sürətlə artır.

Belə ki, son 5 ildə Azərbaycan iqtisadiyyatına 29,3 milyard dollar (29 milyard 303 milyon 112 min 477 dollar) birbaşa xarici investisiya cəlb olunub.

Rəsmi rəqəmlərə əsasən, son 5 ilin ən yüksək göstəricisi 2024-cü ildə qeydə alınıb. 2024-cü ildə ölkə iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyanın həcmi 7,05 milyard dollar (7 milyard 46 milyon 217 min 257 dollar) təşkil edib. Bu da əvvəlki ilə nisbətən 5,8 faiz və ya 0,39 milyard dollar (388 milyon 149 min 253 dollar) daha çox deməkdir. 2023-cü ildə isə bu məbləğ 6,66 milyard dollara (6 milyard 658 milyon 68 min 3 dollar) bərabər olub.

Son 5 ilin hər birində ölkəmizə ən çox birbaşa investisiya yönəldən ölkə Birləşmiş Krallıq olub. 2020-2024-cü illərdə Birləşmiş Krallıqdan ölkə iqtisadiyyatına 8 milyard 633 milyon 344 min 791 dollar (8,63 milyard dollar) birbaşa xarici investisiya cəlb olunub. İkinci sıranı 5 milyard 26 milyon 799 min 828 dollar (5,03 milyard dollar) ilə Türkiyə tutub. Üçüncü sırada isə digər Şimali Kipr yer alıb. Son 5 ildə Şimali Kiprdən ölkəmizə 2 milyard 909 milyon 175 min 95 dollar (2,91 milyard dollar) həcmində birbaşa xarici investisiya cəlb olunub. Ümumilikdə son 5 ildə Azərbaycan iqtisadiyyatına 29,3 milyard dollar (29 milyard 303 milyon 112 min 477 dollar) birbaşa xarici investisiya cəlb olunub ki, bu məbləğin 88,3 faizi cədvəldə də göründüyü kimi 10 ölkənin payına düşür. Ötən ilin göstəricilərinə gəldikdə isə, 2024-cü ildə Birləşmiş Krallıq ölkəmizə 1 milyard 748 milyon 821 min 566 dollar (1,75 milyard dollar) investisiya yatırıb ki, bu da həmin ildə cəlb olunan bütün birbaşa xarici investisiyaların 24,8 faizini təşkil edib.

Ötən il 1 milyard 219 milyon 14 min 750 dollar (1,22 milyard dollar) həcmində birbaşa investisiya ilə qardaş ölkə Türkiyə ikinci sırada yer alıb. 2024-cü ildə Türkiyənin Azərbaycan iqtisadiyyatına yönəldirdiyi birbaşa investisiyanın həcmi ümumi birbaşa xarici investisiya həcminin 17,3 faizini təşkil edib.

Macarıstan 2024-cü ildə Azərbaycan iqtisadiyyatına 1 milyard 18 milyon 647 min 576 dollar (1,02 milyard dollar) birbaşa investisiya yönəltməklə üçüncü olub. Xatırladaq ki, Macarıstandan ölkəmizə yönləndirilən ən böyük birbaşa investisiya 2023-cü ildə 197 milyon 451 min 991 dollar (197,5 milyon dollar) həcmində olub.

2024-cü ildə Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların əsas hissəsi- 90,2 faizi son 5 ilin göstəricilərində qeyd olunan 10 ölkənin payına düşüb. Bu ölkələrin Azərbaycana yönləndirdiyi birbaşa investisiyanın həcmi 6 milyard 357 milyon 273 min 92 dollar (6,36 milyard dollar) təşkil edib.

Azərbaycan Respublikasının Mərkəzi Bankının və Gürcüstan Dövlət Statistika Komitələrinin rəsmi məlumatlarına əsasən, 2024-cü ildə Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların həcmi Gürcüstanla müqayisədə çox olub.

Ötən il Azərbaycana yönəldilən birbaşa xarici investisiyaların həcmi 2023-cü ilə nisbətən artsa da, qonşu ölkədə kəskin azalma qeydə alınıb.

Rəqəmlərlə ifadə etsək, 2024-cü ildə Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların həcmi 2023-cü ilə nisbətən 5,8 faiz artaraq 7,05 milyard dollar (7 milyard 46 milyon 217 min 257 dollar), Gürcüstanda isə 30 faiz azalaraq 1,33 milyard dollar (1 milyard 333 milyon 818 min 169 dollar) təşkil edib.

Əlavə məlumat üçün bildirək ki, 2024-cü ildə hər iki ölkəyə ən çox birbaşa investisiya yönləndirən ölkə Birləşmiş Krallıq olub. Faiz etibarilə Azərbaycan iqtisadiyyatına yönəldirilən birbaşa investisiyaların 24,8 faizi, Gürcüstan iqtisadiyyatına yönəldirilən birbaşa investisiyaların isə 33,6 faizi bu ölkə tərəfindən ayrılıb.

**Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

**Elan:**
**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Məmmədov Bəşir Rövşən oğlunun adına verilmiş MN-0041433 saylı zabitin şəxsi vəsiqəsi 2017-ci ilin may ayında itdiyi üçün etibarsız sayılır.**

**Son illər həm region ölkələrində, həm də Azərbaycanda eynəkli uşaqların sayındakı kəskin artım cəmiyyətin diqqətindədir. Qazaxıstanın Milli Statistika Bürosunun açıqladığı son göstəricilər də vəziyyətin nə qədər ciddiləşdiyini göstərir. Rəsmi məlumata görə, 2024-cü ilin sonuna qədər ölkədə 14 yaşadək 5 milyondan çox uşaq profilaktik tibbi müayinədən keçirilib və onların 105 minində - yəni hər 50 uşaqdan birində - müəyyən anomaliyalar aşkarlanıb. Xəstəliklərin yarıdan çoxu məhz görmə problemləridir: 58 min uşağa miopiya və digər refraksiya pozuntuları diaqnozu qoyulub. Skolioz və duruş pozğunluqları isə daha az rast gəlinən, amma tendensiya olaraq artan problemlər sırasındadır.**

# Dövrün bəlası, yoxsa... - Eynəkli uşaqların sayı niyə artır?



Bu rəqəmlər təkcə Qazaxıstana aid deyil. Mütəxəssislər bildirirlər ki, son 10-15 ildə bütün dünyada, xüsusilə də şəhər mühitində yaşayan uşaqlarda miopiyanın yayılma tempi rekord həddə çatıb. Dünya Səhiyyə Təşkilatının proqnozlarına görə, 2050-ci ilə qədər planet əhalisinin yarısından çoxu yaxıngörən olacaq. Səbəblər isə artıq yaxşı tanınır: uzun müddət qapalı məkanlarda qalmaq, günəş işığının azlığı, kompüter və planşetdən intensiv istifadə, erkən yaşlardan smartfon asılılığı, məktəbdə və evdə düzgün işıqlandırılmayan mühit, həmçinin genetik meyllik.

Azərbaycanda da mənzərə fərqli deyil. Şəhər məktəblərində dərsə gedən şagirdlərin böyük qisminin eynək taxması, valideynlərin artıq ibtidai sinifdən oftalmoloqa müraciət etməsi adi hal alıb. Göz həkimləri bildirirlər ki, son illərdə xüsusilə 6-10 yaş arası uşaqlarda miopiya diaqnozu sürətlə artır. Bir çox hallarda valideynlər problemin dərketmə mərhələsinə gec gəlir - görmə zəifliyi artıq ciddi dərəcəyə çatdıqdan sonra.

Səhiyyə Nazirliyinin bu sahədə hansı proqramları həyata keçirdiyi də sual doğurur. Nazirlik bir neçə il əvvəl məktəblərdə profilaktik müayinələrin gücləndirilməsi, görmə pozuntularının erkən aşkarlanması üçün layihələr hazırlasa da, proses ardıcıl və sistemli şəkildə tətbiq olunmayıb. Regionun bəzi ölkələrində - məsələn, Cənubi Koreya, Yaponiya və Sinqapurda - məktəblərdə gündəlik göz sağlamlığı təlimləri, açıq havada minimum iki saatlıq oyun müddəti və ekran istifadəsinin sərt normativlərlə tənzimlənməsi kimi proqramlar var. Bu proqramlar nəticə verdiyi üçün həmin ölkələrdə uşaq miopiyasının artım sürəti kəskin şəkildə azalıb.

Azərbaycanda isə hələ də vahid milli strategiya yoxdur. Pediatrlar və oftalmoloqların böyük qismi açıq şəkildə bildirir ki, məktəblərdə işıqlandırma standartları yenilənməli, siniflərdə oturma məsafələri normallaşdırılmalı, şagirdlərin planşet və telefonlardan istifadəsi nəzarət altına alınmalıdır. Bundan başqa, valideynlərin də maarifləndirilməsi vacibdir: uşaqların gün ərzində ən azı 1,5-2 saat günəş işığı altında olması, hər 30 dəqiqəlik ekran istifadəsindən sonra gözlərə fasilə verilməsi və yatmazdan əvvəl texnoloji cihazlardan uzaq tutulması çox mühüm şərtlərdir.

Problemin miqyası göstərir ki, bu artıq təkcə tibbi məsələ deyil - həyat tərzi, təhsil sistemi və texnoloji mühitlə bağlı kompleks yanaşma tələb edir. Əks təqdirdə, eynəkli məktəblilərin sayı gələcək illərdə daha da çoxalacaq və bu, cəmiyyətin sağlamlıq xəritəsində ciddi dəyişikliklərə səbəb olacaq.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bütün dövrlərdə xəstəliklər olub, sadəcə olaraq bu qədər dəqiqliyi təsdiq edən diaqnostika olmayıb: "Gözün diaqnostikası üçün istifadə edilən texnologiya Azərbaycana gələndən sonra biz təsdiq edə bildik ki, gözdə zəiflik var, yoxsa yox. Mən 30 ilin göz həkimiyəm və tam əminliklə deyə bilərəm ki, insan kitab oxumaqla və ya kompüterə baxmaqla kor ola bilməz, sadəcə olaraq 35 yaşa qədər insanlarda gözün yorğunluğu və quru göz sindromu əmələ gələ bilər. Lakin bu, gözü zəiflədə bilməz. İndi diaqnostika təbabətin 100 faiz brendidir. Göz zəifdir deyib, ona eynək yazmaq, dərman təyin etmək ötən əsrdə qalan müalicə növüdür. 15 yaşında adam gəlir, yoxlayırsan və görürsən ki, gözü mənfi 3 göstərir. Bu o demək deyil ki, o, həmişə mənfidə qalacaq. Gözdə spazmanı aradan qaldırırsan, 3 dəfə dərman tökürsən və mənfi 3 yox olub, 0-a çevrilir. Bəlli olur ki, şəxsin gözündə zəiflik yox, yorğunluq var. Bu, fərqli-fərqli məsələlərdir. Birmənalı surətdə oxu məsafəsi 33 sm olmalıdır. İşıqlı sahədə oturmaq lazımdır. Bir saat kitab oxudunuzsa, 2-3 dəqiqə otağın uzaq küncünə baxın. Göz məşqləri etmək də vacibdir, onlar spazmı aradan qaldırır".

Qeyd edək ki, görmə zəifləməsinin səbəblərindən biri də genetik faktorlar və irsi amillərdir. Əgər ailə üzvlərinizdə, xüsusilə valideynlərinizdə göz xəstəlikləri varsa, bu sizin də eyni problemləri yaşamağınız üçün risk yaradır. Məsələn, miopiya (uzağı görmə zəifliyi) və hipermetropiya (yaxını görmə zəifliyi) tez-tez ailə üzvləri arasında ötürülən irsi xəstəliklərdir. Genetik xəstəliklər yalnız uzaq və yaxını görmə problemlərini deyil, həmçinin katarakta, qlaukoma və digər ciddi göz xəstəliklərini də özündə cəmləşdirə bilər. Belə xəstəliklərin irsi olduğunu bilmək erkən diaqnoz və müalicə üçün imkan yaradır.

Texnologiyanın inkişafı həyatımızı asanlaşdırsa da, uzun müddət ekran qarşısında vaxt keçirmək göz sağlamlığı üçün zərərli ola bilər. Kompüter, telefon və televizor kimi cihazların istifadəsi zamanı gözlərimiz yorulur, bu da görmə zəifliyinə səbəb ola bilər. Xüsusilə rəqəmsal ekranların yaydığı mavi işıq göz retinasına ziyan vurur və zamanla görmə qabiliyyətini zəiflədir. Bu vəziyyət kompüter görmə sindromu adlanan vəziyyətin yaranmasına gətirib çıxara bilər, bu da göz quruluğu, baş ağrısı və görmə itkisinin əlamətləri ilə müşayiət olunur. Mütəxəssislər ekran qarşısında olan zaman hər 20 dəqiqədən bir 20 saniyə ərzində uzağa baxmağı tövsiyə edirlər ki, gözlər dincəlsin. Bu müddət ərzində göz qapaqlarının hərəkəti artırılmalı və gözlər nəm saxlanmalıdır. Gözlər üçün xüsusi qoruyucu eynəklərin istifadəsi də texnologiya istifadəçiləri üçün önəmlidir. Gözlərin mavi işıqdan qorunması, xüsusi filtrləri olan eynəklərin istifadəsi ilə mümkündür. Texnologiyanın təsirini azaltmaq üçün ekranların parlaqlığını azaltmaq, istirahət fasilələri etmək və göz üçün uyğun işıqlandırma şəraiti yaratmaq vacibdir. Bu cür addımlar görmə zəifləməsinin qarşısını almaq üçün təsirli üsullardan biridir.

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**



# 50 minə yaxın tibb bacısı Britaniyanı tərk edir

**Təxminən 50 min tibb bacısı planlaşdırılan miqrasiya sərtləşdirmələri nəticəsində Birləşmiş Krallığı tərk edə bilər.**

Musavat.com xəbər verir ki, bu barədə "The Guardian" qəzeti məlumat yayıb.

Qəzetin Kral Tibb Bacılığı Kollecinin (RCN) araşdırmasına istinadən yazdığına görə, bu, İngiltərənin Milli Səhiyyə Xidmətini indiyə qədərki ən böyük kadr böhranı ilə üz-üzə qoya bilər.

Kir Starmer hökumətinin təklif etdiyi dəyişikliklər səhiyyə sistemində çalışan xarici vətəndaşlar arasında ciddi narahatlıq yaradıb. Hakimiyyətin planları, o cümlədən, xarici işçilər üçün ixtisas tələblərinin artırılmasını və bütün növ vizaların verilməsi zamanı ingilis dili biliklərinə dair qaydaların sərtləşdirilməsini nəzərdə tutur.

RCN-in sorğusunun nəticələrinə görə, daimi yaşayış icazəsi olmayan əməkdaşların 60%-i bildirib ki, dəyişikliklər onların Böyük Britaniyada qalmaq planlarına "çox böyük ehtimalla" təsir göstərəcək. Həmkarlar ittifaqının hesablamalarına görə, bu, təxminən 46 min mütəxəssisin ölkədən getməsi ilə nəticələnə bilər. RCN nümayəndələri həmçinin qeyd edirlər ki, tibb bacılarının kütləvi şəkildə ölkəni tərk etməsi pasiyentlərin təhlükəsizliyini risk altına qoyacaq. Araşdırmada 5 mindən çox xarici mənşəli tibb bacısı iştirak edib.

Nəşrin yazdığına görə, hazırda Böyük Britaniyada təhsili xaricdə almış 200 mindən artıq tibb bacısı çalışır ki, bu da ümumi sayın təxminən dörddə birini təşkil edir.

17 noyabrda Böyük Britaniya hökuməti sığınacaq axtaran şəxslərlə bağlı siyasətin sərtləşdirilməsi planlarını açıqlayıb. Sənədə əsasən, ölkədə qanunsuz yaşayan şəxslər üçün daimi qalma hüququ əldə etmək müddəti dörd dəfə artırılaraq 20 ilə çatdırılacaq. Eyni zamanda, sığınacaq axtaran şəxsə dərhal verilən ilkin qalma müddəti 5 ildən 2,5 ilə endiriləcək. Əgər miqrantın doğma ölkəsi geri qayıtmaq üçün təhlükəsiz hesab edilərsə, onun Böyük Britaniyada qalması üçün artıq hüquqi əsas qalmayacaq.

Qanunsuz immiqrasiya problemi Böyük Britaniya Avropa İttifaqından çıxdıqdan sonra daha da kəskinləşib. 2018-ci ildən bəri La-Manş boğazı vasitəsilə şişmə qayıqlarla krallığa 185 mindən çox qeyri-qanuni miqrant daxil olub. Ötən ilin iyulunda keçirilmiş parlament seçkilərindən sonra formalaşan Leyborist Partiyasının hökuməti, qanunsuz miqrantların ölkəyə daxil olmasının qarşısını almaq üçün Aİ dövlətləri ilə əməkdaşlığı gücləndirməyi vəd edib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 212 (8822) 22 noyabr 2025

Noyabr

## Bunları bilirsinizmi?

* Hər gecə yatmamışdan qabaq üzünüzü yuyun, dişlərinizi fırçalayın, işıqları söndürün.
* Əgər evdəsinizsə, yuxunuz qəfildən gəlirsə, mütləq həmin an bütün işlərinizi buraxıb yatın. Əks halda, gecəni narahatlıqla və gec yata bilərsiniz. Bu da sizin üçün yaxşı olmaz.
* Yeni yuyulmuş yastıq üzü və yataq dəslərindən istifadə edin. Belə olan halda, gecə rahat dönə və sakit yata bilərsiniz. Bundan başqa, yatmazdan öncə otağınıza bir az əti vurun.
* Saatı olduğunuz otaqda saxlamayın. Saatın səsi sizi narahat etməmək və gecə yarı yuxudan oyanmış olduğunuz halda görüb əsəbləşməməyiniz üçün onu gözünüzdən kənar bir yerə qoyun.
*Yastığınızı qabartılmış vəziyyətə salın. Bu rahat yuxuya getməyə kömək edir.
* Düzgün yastıq seçin. Yastıq yumşaq olmalıdır, ancaq çox yüksək olmalı, boynunuzu dəstəkləməli şəkildə dayanmalıdır.
* Pəncərələrinizə qalın pərdə taxın. Hətta çöldəki işıqların yanması belə sizin yatmağınıza mane ola bilər.
* Yataq otağınızı təmiz saxlayın və rahatlayıcı rənglərdən istifadə edin. Otaqda elə rənglər olmalıdır ki, insanı yuxuya tez apara bilsin.
* Yatmadan öncə bir ovuc çərəz, ya da meyvə yeyin. Bunlar yuxunuzun tez gəlməyinə yaxşı təsir bağışlayacaq. Ondan əlavə bir stəkan ılıq süd də içə bilərsiniz.
* Yataqda olarkən gündəliyinizə 10 dəqiqə vaxt ayırın. Gün ərzində yaşadığınız hadisələr, hiss etdiyiniz duyğuları yazın ora, beləcə də yuxuya rahat getmiş olarsınız.
* Suyu daha çox səhər, daha az axşam için.
* Yüklənən mobil telefondan uzaq durun.
* Ən yaxşı yuxu vaxtı - axşam saat 10-dan səhər 6-ya kimidir.

## Təklikdə yeməyin sağlamlığa zərərləri

**Tez-tez təklikdə yemək yeyən yaşlı insanlar qidalanmanın zəifləməsi və sağlamlığın pisləşməsi riski ilə üzləşirlər. Bununla bağlı tədqiqatın nəticələri "Appetite" jurnalında dərc edilib. Alimlər 12 ölkədən 65 yaş və yuxarı 80 000-dən çox insanı əhatə edən 20 beynəlxalq tədqiqatın məlumatlarını təhlil ediblər. Məlum olub ki, təklikdə qida qəbul etmək daha zəif rasion, zülal və əsas qidaların çatışmazlığı, çəki itkisi və sümüklərin kövrəlməsinin inkişaf riskinin artması ilə əlaqəlidir.**

Müəlliflər qeyd edirlər ki, qida təkcə kalori və vitamin kompleksi deyil, həm də vacib sosial ritualdır. Süfrə arxasında cəmiyyətin olmaması iştahanı zəiflədir, rasionun müxtəlifliyini azaldır və emosional vəziyyətə təsir göstərir ki, bu da nəticədə, fiziki sağlamlıqda öz əksini tapır. Təkbaşına yeyən insanlar az hallarda tam şəkildə yeməklər seçirlər, tez-tez qida qəbulunu ötürürlər və vacib qida maddələrini daha yavaş qəbul edirlər. Fərq zülal qəbulunda - yaşlılıqda əzələ kütləsini və funksional müstəqilliyi qorumaq üçün əsas komponentin qəbulunda xüsusilə nəzərə çarpıb. Bəzi tədqiqatlarda tənha insanların həmçinin tez-tez istəmədən çəki itirilməsi və sümük kövrəkliyinin başlanması əlamətlərini göstəriblər.

Tədqiqatçılar vurğulayırlar ki, təkbaşına qida qəbulu potensial olaraq dəyişdirilə bilən risk faktorudur. Birlikdə qida qəbulu şəraitinin formalaşdırılması yaşlı insanlarda qidalanma keyfiyyətini və ümumi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər.

## Hindistanda öskürək əleyhinə şərbət faciəsi: Çox sayda uşaq ölüb



**Hindistanda son aylarda ən azı 24 uşaq öskürək əleyhinə şərbətdən həyatını itirib. Oxu.Az-ın xəbərinə görə, bu barədə "Reuters" agentliyi mənbələrə istinadən məlumat verib. Tamilnad ştatından olan, səhiyyə və dərman təhlükəsizliyinə məsul üç məmur agentliyə bildirib ki, onların fikrincə, "Coldrif" öskürək əleyhinə şərbət partiyasının istehsalında istifadə edilən həlledici zəhərli kimyəvi maddə ilə çirklənmiş ola bilər.**

Bildirilir ki, "Sresan Pharmaceutical Manufacturers" şirkəti yerli kimyəvi distribüter olan "Sunrise Biotech"dən 50 kiloqram propilenqlikol (PG) həlledicisini alıb. Elə həmin gün həlledicini "Jinkushal Aroma" - maye yuyucu vasitələr və digər kimyəvi maddələr üçün ətirləndiricilər istehsal edən kiçik bir şirkət də alıb. Hindistan hakimiyyəti araşdırmalara başlayıb. "Coldrif" şərbətinin məlum sənaye toksini olan dietilenqlikolla (DEG) güclü şəkildə çirkləndiyi vurğulanır. Hüquq-mühafizə orqanları hazırda bu maddənin həllediciyə necə daxil olduğunu müəyyənləşdirirlər.

## 12 milyon dollarlıq qızıl unitazın alıcısı bəlli oldu



**Məşhur italyan heykəltəraşı Maurisio Kattelan tərəfindən hazırlanmış 100 kiloqramlıq qızıl unitaz "Ripli" muzeyi tərəfindən 12 milyon dollara alınıb. Oxu.Az xəbər verir ki, bu barədə BBC məlumat yayıb. Muzey nümayəndələrinin sözlərinə görə, hazırda onlar ziyarətçilərin bu əşyanı təyinatı üzrə istifadə etməsinə icazə verilməsi imkanlarını araşdırırlar.**

"Belə bir fürsət ciddi planlaşdırma və hər şeyin düzgün istiqamətdə getməsini təmin etmək üçün kifayət qədər cəsarətli bir insan tələb edir", - muzeydən bildirilib. Muzey Yer küresindəki ən qəribə əşyalar haqqında televiziya və radio şouları, eləcə də qəzet komiksləri yaradan amerikalı karikaturaçı, sahibkar və həvəskar antropoloq Robert Riplinin adını daşıyır.

Xatırladaq ki, "Sotheby's" hərrac evi tərəfindən satılan Kattelanın "Amerika" adlı əsəri 101,2 kq (223 funt) qızıldan hazırlanmış tam işlək unitazdır.



## Yaponiyada ayıların avtomobillə toqquşması rekord həddə çatıb

**Yaponiyanın şimalındakı Akita bölgəsində ayıların iştirakı ilə rekord sayda yol-nəqliyyat hadisələri qeydə alınıb. Oxu.Az xəbər verir ki, bu barədə NHK polis məlumatlarına istinadən məlumat yayıb. Məlumata görə, ilin əvvəlindən bu günə qədər bölgədə avtomobillərlə ayılar arasında 134 toqquşma baş verib. Bu, 2020-ci ildən etibarən statistikaların toplanmasına başlanıldığından bəri rekord göstərici sayılır. Ötən il ərzində isə yalnız 23 belə hadisə qeydə alınıb.**

## Frida Kalonun avtoportreti üçün rekord məbləğ - 55 milyon dollar ödənildi

**Frida Kalonun avtoportreti noyabrın 20-də Nyu-Yorkda "Sotheby's" hərracında qadın rəssamlar üçün rekord məbləğə - 54.6 milyon dollara satılıb. Oxu.Az xəbər verir ki, bu barədə "Agence France-Presse" (AFP) məlumat yayıb. Bildirilir ki, 1940-cı ildə ərsəyə gəlmiş "Yuxu (Çarpayı)" adlı əsər amerikalı rəssam Corciya O'Kiffin müəyyən etdiyi rekordu yeniləyib. Qeyd edək ki, O'Kiffin əsəri 2014-cü ildə 44.4 milyon dollara satılıb. Sentyabr ayına olan ilkin məlumata görə, Kalonun avtoportreti 40-60 milyon dollar civarında qiymətləndirilirdi.**

## ABŞ-də pul müqabilində inəklərlə qucaqlaşmaq təklif olunur

**ABŞ fermalarında inəklərlə ödənişli qucaqlaşmalar ölkə daxilində və dünyada süd məhsullarının qiymətlərinin düşməsi fonunda fermerlər üçün əlavə gəlir mənbəyi kimi yenidən populyarlıq qazanıb.**

Oxu.Az xəbər verir ki, bu barədə "The Washington Post" qəzeti məlumat verib. Qeyd olunur ki, bu xidmət ilk dəfə 2020-ci ildə koronavirus pandemiyası zamanı sosial təcridlə mübarizə aparmaq üsulu kimi populyarlaşmışdı. İndi istehsalçıların əlavə gəlirə ehtiyacları olduğu üçün bir çox fermerlər yenidən inəklərlə ödənişli qucaqlaşmalar təklif edir. BMT-nin məlumatlarına görə, oktyabr ayında süd məhsullarına olan qiymət indeksinin 5 bənd azalması müşahidə olunub. Azalma ardıcıl dördüncü aydır qeydə alınır.

Qəzet bu cür xidmətlər təklif etməyə başlayan süd fermalarına dair bir neçə nümunə gətirib. Onlardan bəziləri məhsul istehsalını tamamilə dayandırıb və inəklərlə ünsiyyət xidmətlərinin təqdim edilməsinə keçib. Fermerlər heyvanlara xüsusi olaraq təlim keçir ki, onlar insanların yanında otursunlar və onlara sığınsınlar. Bəziləri bunun üçün təkcə buzovlardan istifadə edirlər, çünki onların ölçüləri daha kiçikdir və insanlara etibar etməyi daha asan öyrənirlər. İnəklərlə bir saatlıq qucaqlaşma təxminən 30-40 dollar təşkil edir.

ABŞ-nin Kornell Universitetinin iqtisadçısı Kristofer Vulfun sözlərinə görə, inflyasiya səviyyəsinin artması səbəbindən ABŞ sakinləri restoranlara daha az baş çəkməyə başlayıblar. Bu da süd məhsullarına tələbatın azalmasına gətirib çıxarır. Bundan əlavə, fermer gəlirlərinin aşağı olmasının səbəbləri sırasında Tramp administrasiyasının digər ölkələrlə ticarət müharibələri də göstərilir. Gömrük rüsumları səbəbindən gübrələrin, texnikanın və avadanlıqların qiymətləri artıb.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500